

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Yenidən qurulan Şuşamız!



8


№ 075 (6758)

# SƏS

3 may 2023-cü il.
Qiymәti 60 qәpik


# Hər səfər bir inkişafdır!



2

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər

# Ərdoğan:

## Biz əfəndi olmağa deyil, xidmət etməyə gəldik



9

### Dövlət Statistika Komitəsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan tədbir keçirilib



5

### Mina terroru: savaş bitib, müharibə cinayətləri davam edir



13

### "Oniomania": alış-veriş xəstəliyə çevrilərsə...



14



16

### Diqqət: Övladlığa götürmə qaydası dəyişdi

### Çətindir qadın olmaq...



12

# Hər səfər bir inkişafdır!

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər

***Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər. Prezident İlham Əliyev Ağdam Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoyub. "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına mərkəz və kompleks barədə ətraflı məlumat verib.***

Bildirilib ki, Rəqəmsal İdarəetmə Mərkəzi şəhərin müxtəlif təyinatlı infrastrukturunun elektrik enerjisinə tələbatını ödəməklə yanaşı, təchizat sxeminə daxil olan şəbəkələrin real vaxt rejimində və rəqəmsal formatda idarə olunmasını təmin edəcək. Müasir tipli mərkəz vasitəsilə ətraf ərazilərin də elektrik enerjisi ilə təchizatının etibarlılığına və dayanıqlılığına nəzarət təmin olunacaq. Elektrik şəbəkələrinin Rəqəmsal İdarəetmə Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin yüksəldilməsinə zəmin yaradacaq. Burada mühəndis-texniki heyətin səmərəli fəaliyyətini təmin edən müasir avadanlıqla təchiz olunmuş iş otaqlarının, vətəndaş qəbulu üçün şəraitin yaradılması nəzərdə tutulub.

Qeyd olunub ki, Təlim-Tədris Kompleksində beynəlxalq tədbirlərin keçirilməsi üçün lazımi şərait yaradılacaq.

Kompleksin Regional Tədris Mərkəzində yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiqi və istismarı qaydaları, peşə vərdişlərinin formalaşdırılması, real iş şəraitində təlim və ustalıq yarışlarının təşkili nəzərdə tutulur. Mərkəz təlim-tədris zalından və təlim poliqonundan ibarətdir. Tədris zalı 35/0,4 kV-luq müasir şəbəkə modelinin, 35 və 0,4 kV-luq fiberoptik kabellərin, kompozit şüşəlifli dayaqların tətbiq sahələri, perspektiv inkişafı və üstünlüklərinin əyani şəkildə təqdim edilməsi üçün nəzərdə tutulub. Burada, həmçinin xüsusi dayaqlarda şəbəkədə istifadə edilən element və ləvazimatlar qurulacaq.







İşğaldan azad edilmiş ərazilərdə yaşıl enerji mənbələrinin (günəş və külək enerji qurğuları) tətbiqinə dair real işlək model də tərtib olunub, həm personalın, həm də gələcəkdə aktiv istehlakçıların maarifləndirilməsi təlimlərində istifadəsi nəzərdə tutulub. Burada elektroenergetika sahəsində əldə olunmuş tarixi nailiyyətləri əks etdirən elektron guşə və əyani vəsait stendləri, müasir uçot cihazları (SMS, Smart, NFC-sayğacları) və təhlükəsizlik texnikası, idarəetmə plakatları təqdim ediləcək.

Məlumat verildi ki, beynəlxalq tədbirlər poliqonu isə peşə ustalığı yarışları və müasir texnologiyaların əyani nümayişi üçün nəzərdə tutulmuş texnoloji ərazidir. Poliqonda günəş və külək enerji mənbələrinin qurulması, istismarı və müasir idarəetmə sistemləri üçün BOEM-təlim sahəsi planlaşdırılıb. Təlim poliqonunda real iş şəraitində istifadə edilən müasir şəbəkə modeli, Yaşıl enerji elementləri (günəş və külək enerji mənbələri) və innovativ layihə maketlərinin yerləşdirilməsi nəzərdə tutulub. Poliqon beynəlxalq peşə ustalığı yarışlarının, elektrotexniki təlim tədbirlərinin keçirilməsi və müxtəlif istiqamətlər üzrə təcrübə mübadiləsinin əyani nümayiş etdirilməsi üçün də geniş imkanlar yaradacaq.

Burada yaradılacaq Regional Logistika Mərkəzi isə region üzrə tələb olunan nəqliyyat, xüsusi texnika və mal-materialın daşınması, təmiri və saxlanması üçün nəzərdə tutulub. Məqsəd tələb olunan texniki vasitələrin vaxt itkisi olmadan əraziyə çatdırılması və saz vəziyyətdə saxlanmasından ibarətdir.

Transformator xidmət sahəsində müasir paylayıcı şəbəkələrdə tətbiq edilən güc transformatorlarının təmiri, sazlanması və müasir cihazlarla təchiz edilməsi həyata keçiriləcək. Mərkəzi Laboratoriya smart-sayğaclar, kabel, izolyator, qurğu və avadanlıqların test-sınaq-diaqnostika tədbirlərinin həyata keçirilməsi üçün nəzərdə tutulub.

Dövlətimizin başçısına işğaldan azad olunmuş ərazilərdə "Azərişıq" ASC tərəfindən paylayıcı elektrik şəbəkəsinin qurulması istiqamətində görülmüş işlər barədə də məlumat verildi. Qeyd edildi ki, Ağdam rayonu ərazisində yerləşən infrastruktur və strateji obyektlərin ilkin mərhələdə elektrik təchizatı üçün 28 kilometr məsafədə 10 kV-luq hava elektrik verilişi xətləri çəkilib, 7 ədəd müxtəlif gücdə komplekt transformator məntəqəsi quraşdırılıb. Hazırda isə 35 kV-luq "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının tikintisi və bu yarımstansiyaların qidalandırılması üçün 35 kV-luq kabel xətlərinin çəkilməsi işləri görülür. Kəlbəcər rayonu üzrə dayanıqlı elektrik təchizatı üçün 31 kilometr uzunluğunda 110 kV-luq hava xətti çəkilib, 110/35/6 kV-luq "Daşkəsən yarımstansiyası yenidən qurularaq, 33,7 kilometr uzunluğunda 110 kV-luq hava xətləri bərpa edilib. Hazırda 35/0,4 kV-luq "Kəlbəcər" yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq "Çaykənd-Zod" kabel xəttinin çəkilməsi işləri aparılır. Laçın rayonunda da bir çox işlər görülüb, o cümlədən Azərbaycan-Ermənistan şərti dövlət sərhədi istiqamətində qurulan sərhəd-keçid məntəqəsini elektrik enerjisi ilə təmin etmək üçün 1,8 kilometr uzunluğunda 0,4 kV-luq kabel xətləri çəkilib və 160 kVA gücündə 2 transformator quraşdırılıb. Hazırda Kilsəlidağ, 6-cı rayon və Şəlvə əraziləri istiqamətində 66 kilometr uzunluğunda 35 kV-luq elektrik verilişi xətlərinin çəkilməsi və müxtəlif gücdə komplekt transformator məntəqələrinin quraşdırılması işləri aparılır. Daha sonra Prezident İlham Əliyev Ağdam Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoyub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dünən həmçinin Ağdam Muğam Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak ediblər. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verib.

Mərkəzin binasının birinci mərtəbəsində kafe, kinozal, kitabxana, 637 yerlik konsert və iki rəqs zalının yaradılması nəzərdə tutulur. İkinci mərtəbədə isə inzibati otaqlar olacaq.

***Ardı Səh. 3***

# Hər səfər bir inkişafdır!

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər



Əvvəli Səh.2

Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı, müəllimlər və müdir otaqları yaradılacaq, ərazisində isə min kvadratmetrlik açıq amfiteatr inşa ediləcək.

Qeyd edək ki, qədim və zəngin mədəniyyətimizin vizit kartı muğam, eyni zamanda, xalqımızın malik olduğu milli mədəniyyətin koloriti, hər birimizin mənəvi və ruhi qidasıdır. Bütün azərbaycanlıların həyat hekayətinə çevrilən muğamın təbliğinə son illərdə istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda dövlət səviyyəsində yüksək diqqət və qayğı göstərilir. Muğamın yaşaması, dünyada layiqincə təbliği və gələcək nəsillərə ötürülməsi baxımından son dövrlərdə yaradılan muğam mərkəzlərinin müstəsna əhəmiyyəti var.

Bəşəriyyətin şifahi və mənəvi irsinin incilərindən olan muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən son illərdə görülən sanballı işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da layiqli töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə UNESCO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf etdi. Muğam UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına salınıb. Son illərdə muğam müsabiqələrinin keçirilməsi bu əvəzsiz sənət incisinin yaşadılması istiqamətində mühüm hadisə kimi tarixə düşüb. Azərbaycan milli musiqi mədəniyyətinə görkəmli muğam ifaçıları bəxş etmiş Ağdam rayonunda Muğam Mərkəzinin inşası işğaldan azad olunmuş ərazilərimizdə digər sahələr kimi, mədəniyyətin də sürətlə dirçəldilməsi istiqamətində ardıcıl işlərin göründüyünü göstərir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin təməlini qoydular.





Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq 2-ci yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər. Dövlətimizin başçısına və birinci xanıma yaşayış məhəlləsi barədə məlumat verilib.

Bildirilib ki, ümumi sahəsi 14 hektara yaxın olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Mənzillərdən 114-nün birotaqlı, 464-nün ikiotaqlı, 536-nın üçotaqlı, 154-nün isə dördotaqlı olması planlaşdırılır.

Məhəllədəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur.

Bütün binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii inşaat materiallarından istifadə olunacaq. Dövlətimizin başçısı Ağdam şəhərində 2-ci yaşayış məhəlləsinin təməlini qoyub.

Dünən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq 3-cü yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər. Dövlətimizin başçısına və xanımına əvvəlcə Ağdam şəhər 1 saylı məktəbin yeni binasında tikinti işlərinin gedişi barədə məlumat verildi. Bildirildi ki, 960 şagird yerlik bu məktəbdə təhsil üçün hər cür şərait yaradılacaq.

Qeyd edək ki, bu məktəbin binasının təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Fəaliyyətə 1883-cü ildə başlayan bu təhsil ocağı Qarabağ bölgəsinin ən qədim məktəbidir.

Məlumat verildi ki, ümumi sahəsi 17 hektara yaxın olan yaşayış məhəlləsinin salınacağı ərazinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir və bu hissələrdə əhalinin sıxlığı azdır. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumi sahəsi 120 min kvadratmetr təşkil edən 1239, o cümlədən 25 birotaqlı, 396 ikiotaqlı, 533 üçotaqlı, 285 dördotaqlı mənzil olacaq.

Yaşayış məhəlləsindəki binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq. Binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Məhəllədə, həmçinin idman meydançaları, velosiped və avtomobil dayanacaqları yaradılacaq. Dövlətimizin başçısı Ağdam şəhərində 3-cü yaşayış məhəlləsinin təməlini qoyub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində tikiləcək inzibati binanın təməlinin qoyulması mərasimində də iştirak ediblər. Dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verilib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirdi ki, zirzəmi və beş mərtəbədən ibarət olacaq binanın tikinti sahəsi ümumilikdə 24,5 min kvadratmetr təşkil edəcək. Zirzəmi qatında avtomobil dayanacağı, mülki müdafiə sığınacağı, texniki otaqlar, anbar, mətbəx, auditoriya yaradılacaq. Binanın birinci mərtəbəsində rayon statistika idarəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rayon şöbəsi, Qida Təhlükəsizliyi Agentliyinin, Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin regional bölmələri, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yerli bölməsi, rayon mədəniyyət şöbəsi, Məşğulluq Mərkəzi (DOST mərkəzi), Dövlət Aqrar İnkişaf Mərkəzi, Dövlət Vergi Xidmətinin Ərazi Vergilər İdarəsi, iclas otağı və arxiv olacaq.

İkinci mərtəbədə 7 iclas otağı, 8 açıq ofis, zal, katiblik fəaliyyət göstərəcək. Üçüncü mərtəbədə Azərbaycan Respublikasının Prezidentinin xüsusi nümayəndəliyinin qərargahı, iki hissəyə bölünə bilən ziyafət zalı yaradılacaq. Dördüncü və beşinci mərtəbələrdə də ofislər, görüş, iclas və digər otaqlar olacaq.

İnzibati binanın qarşısında tədbirlərin keçirilməsi üçün parad meydanının, sahəsi 17,5 min kvadratmetr olan park və şəhər meydanının da tikintisi nəzərdə tutulub. Prezident İlham Əliyev inzibati binanın təməlini qoyub.

Elə həmin gün Prezident İlham Əliyev Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olub. Qeyd edək ki, Azərbaycan Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamına əsasən inşa olunan bu dəmir yolu xəttinin tikintisinin 2023-cü ildə başa çatdırılması nəzərdə tutulur. Uzunluğu 47,1 kilometr (yan yolları ilə birlikdə 57 kilometr) olan bu dəmir yolu təkxətlidir və elektrikləşdirilməyib. Yol boyunca Bərdə, Köçərli, Təzəkənd və Ağdam stansiyaları fəaliyyət göstərəcək. Dəmir yolunun üzərində 3 körpü inşa olunacaq. Yolun keçdiyi ərazi minalardan təmizlənib.

Bildirilib ki, dəmir yolu xəttinin layihələndirilməsi işləri 90 faiz yerinə yetirilib, Ağdam vağzalının təməli qoyulub. Həmçinin Bərdə və Ağdam mənzillərində 3 platforma, həmin platformalar üçün əlavə yolun və iki yoldəyişənin layihələndirilməsi nəzərdə tutulur. Dəmir yolu xəttinin 32,8 kilometrlik hissəsində relslər quraşdırılıb. Həmçinin torpaq işləri, mühəndis qurğularının tikintisi, yolun üst quruluş elementlərinin və yoldəyişənlərin quraşdırılması birinci mərhələ üzrə tam başa çatdırılıb. Hazırda 45-ci və 47-ci kilometrlərarası ərazidə üst quruluş elementlərinin quraşdırılması və Ağdam stansiyasının 6-cı yolunun torpaq işləri davam etdirilir.

Diqqətə çatdırılıb ki, tikinti-quraşdırma işləri iki mərhələdə həyata keçirilir. Yolun Bərdə-Təzəkənd hissəsində işlərin 80 faizi icra edilib. Təzəkənd-Ağdam istiqamətini əhatə edən ikinci mərhələdə isə icra vəziyyəti 71 faizdir. Dövlətimizin başçısına Ağdam şəhər dəmir yolu və avtovağzal kompleksi barədə də məlumat verilib.

Bildirilib ki, kompleks vahid nəqliyyat qovşağı kimi dizayn olunub. Bu da sərnişinlərin rahat hərəkətinə imkan yaradacaq. Milli memarlıq üslubunda inşa olunacaq kompleksin binasında şüşə elementlər üstünlük təşkil edəcək.

Avtovağzalda ilkin mərhələdə şəhərlərarası (rayonlararası) müntəzəm avtobus marşrutlarının sayının 10 olması planlaşdırılır. Dəmir yolu vağzalında gündəlik 1000, avtovağzalda isə 1500 nəfərədək sərnişinin qəbul edilməsi nəzərdə tutulur.

# Sərhəd tanımayan Azərbaycan-Türkiyə sarsılmaz birliyi!

**Bu real faktordur ki, güclü ölkənin güclü, qətiyyətli lideri də güclü olur. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir".**

Bəli, bu gün tarixi sınaqlardan çıxmış Güclü Azərbaycan - Güclü Türkiyə liderlərinin örnək qardaşlıq birliyi bütün dünyanın diqqətindədir. Sözsüz ki, bu danılmaz faktordur ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr. Ən əsas amil isə ən çətin anlarda bir-birinin yanında olmaq. Qeyd edək ki, Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. Belə ki, 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi: "Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır". Anadoluda Qazi Mustafa Kamal Atatürkün önderliyi ilə aparılan milli mücadiləyə azərbaycanlılar maddi və mənəvi yardım göstərmişlər.

Bəli, Türkiyə-Azərbaycan sınaqlardan çıxmış qardaşlıq birliyi, ulu öndər Heydər Əliyevin söylədiyi "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir" və böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", - kəlamları yaşadığımız günlərdə bir daha tarixiləşdi, toplumun bütün kəsimləri tərəfindən bəyənilən, uşaqdan-böyüyə hər kəsin dilinin əzbəri olan, istər sosial şəbəkələrdə, istərsə də cəmiyyət həyatının hər hansı bir sahəsində ən çox işlədilən ifadəyə çevrildi. Və bu gün bu iki güclü Liderlərin şad gündə, dar gündə bir-birinin yanında olması bir daha dünyaya nümayiş etdirdi ki, Azərbaycan və Türkiyə bundan sonra da bir olacaq. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır. Biz 44 günlük İkinci Qarabağ müharibəsində bu birliyin ən yüksək zirvədə olduğunu bir daha gördük. Eyni zamanda, iki dost, qardaş ölkə arasında müttəfiqlik sənədinin 15 İyun - Milli Qurtuluş Günündə Qarabağımızın tacı, musiqi beşiyimiz Şuşada imzalanması dünyaya bu birliyin, həmrəyliyin gələcəyi ilə bağlı bir çox məqamları çatdırdı. Vətən müharibəsində dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür" bəyan etdi. Və bu 44 günlük İkinci Qarabağ müharibəsinin Qələbə Zəfərində iki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan - "Bir millət, iki dövlət" birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söylədi: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq".



**RƏCƏB TAYYİB ƏRDOĞAN: "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür"**

**PREZİDENT İLHAM ƏLİYEV: "Bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq"**

Həmçinin, qardaş Türkiyədə istər yanğınlar, istərsə də fevralın 6-da baş verən zəlzələnin ilk günündən bu günə kimi, türk xalqı kimi, Azərbaycan xalqı da böyük hüzün, kədər içində oldu. Azərbaycan Prezidenti İlham Əliyev fevralın 6-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını bildirdi. Prezident İlham Əliyev Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı çatdırdı, yaralananların tezliklə şəfa tapmasını dilədiyini bildirdi. Azərbaycan Prezidenti onu da vurğuladı ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır. Bu bir daha iki qardaş ölkənin liderlərinin həmrəyliyinin, "bir millət, iki dövlət" olduğunun nümayişi idi. Həmçinin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da sosial mediada paylaşım edərək Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladığını bildirdi. Faciə zamanı həlak olanlara rəhmət diləyən, onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verən, yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayan Mehriban xanım Əliyeva "Türkiyə xalqının kədəri bizim kədərimizdir. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!", - deyə qardaş Türkiyəyə dəstəyini ifadə etdi.

Ən əsas məqam isə, Türkiyənin zəlzələ ilə əlaqədar dördüncü dərəcəli həyəcan elanından sonra beynəlxalq müstəvidə yardım təklifləri gələrkən təbii ki, yenə ilk köməyə gedən qardaş, dost olan Azərbaycan oldu, Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva oldu. Və bu günə kimi də bu birlik, qardaşlıq davam edir. Zəlzələ bölgəsinə səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qazintep Hava Limanında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişi əsasında qardaş ölkəyə humanitar yardım aparan Fond əməkdaşları ilə görüşüb. Baş vermiş faciə ilə əlaqədar Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın başsağlığını çatdıran Fondun nümayəndəsi bu günlərdə bütün Azərbaycan xalqının, ölkənin bütün təşkilatlarının qardaş ölkə üçün zəruri yardımların göstərilməsi naminə səfərbər olduğunu bildirib.

Azərbaycan dövləti və xalqının Türkiyədəki faciə ətrafında səfərbər olmasına görə təşəkkürünü bildirən Rəcəb Tayyib Ərdoğan deyib: "İlham qardaşıma, Mehriban bacıma öz adımdan, millətim adımdan çox təşəkkür edirəm!".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan onu da vurğulayıb ki, Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycanın yanında olduğu kimi, indi də belə çətin gündə Azərbaycan Türkiyənin yanındadır: "Öz adımdan, ailəm və xalqımız adından minnətdarlıqlarımı çatdırıram. Biz tək bu gün deyil, ölənədək birlikdə olacağıq. Bir millət, iki dövlət olaraq yola davam edəcəyik!"

## BU SƏRHƏD TANIMAYAN QARDAŞLIQ, ƏBƏDİ, SARSILMAZ BİRLİYİMİZDİR

Bəli, bu gün Türkiyə və Azərbaycan liderlərinin qardaşlığı, iki dövlət bir yumruq həmrəyliyi birliyi, dar gündə, xoş gündə bir yerdə olması sarsılmaz birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Bu sərhəd tanımayan qardaşlıq birliyidir. Və hər iki qardaş dövlətlərin liderləri və xalqə bir daha dünyaya nümayiş etdirdi ki, bu sarsılmaz qardaşlıq birliyi təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələrinin təsdiqidir və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar, onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur! Çünki Azərbaycan xalqı bu sarsılmaz birliyin qüdrətinə 44 günlük şanlı Vətən müharibəsində gördü və bütün dünya bir daha şahid oldu. Və qələbədən də sonra Türkiyə həmişə olduğu kimi, yenə də haqq işimizi müdafiə edərək Qarabağın azadlığa qovuşdurulmasında Azərbaycana həm mənəvi, həm də siyasi dəstək oldu. Həmin dövrdə nə qədər beynəlxalq təzyiqlərlə qarşılaşsa da, qardaş ölkə bu mövqeyindən bir addım da geri çəkilmədi, daim Azərbaycanın yanında oldu.

## TÜRKİYƏ-AZƏRBAYCAN ARTIQ BİR YUMRUQDUR, BİR ÜRƏKDİR, BİR CANDIR

Bəli, bu gün biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələri mövcuddur və bu da təbiidir.

"Əminəm ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq. Ancaq bu, inanılmaz dərəcədə böyük faciədir",-deyən dövlət başçımız söyləyib ki, hər bir qurtarılan can elə bil ki, bizə bir dünyanı bağışlayır: "Yenə də deyirəm, həm Türkiyədən, həm Azərbaycandan, həm digər ölkələrdən gələn xilasedicilər çox böyük iş görürlər. Əlbəttə ki, burada əsas yük və mənəvi yük Türkiyə hökumətinin üzərinə düşür. Mənim qardaşım hörmətli Prezident dərhal bütün göstərişləri verdi, bütün nazirləri fəlakət zonalarına göndərmişdir və tam əminəm ki, güclü və qüdrətli Türkiyə dövləti bu çətinliyi də aşacaq və tezliklə qurtarma, arama işlərinin aparılmasında öz səylərini davam etdirəcək. Ondan sonra təbii ki, bərpa işlərinə də biz qoşulmağa hazırıq. Yəni, Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir".

Budur qardaş dayağı, budur çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz! Və Azərbaycan-Türkiyə bütün çətin anlarda xalqının birliyi ilə, iqtidarının səyi ilə həmişə qalib olacaq!!!

Çünki bu gün Güclənən bir Azərbaycan, Güclənən bir Türkiyə vardır! Və xalq şairi Bəxtiyar Vahabzadənin bu qardaşlıq birliyini ifadə etdiyi şeirində olduğu kimi:

Bir ananın iki oğlu,
Bir amalın iki qolu.
O da ulu, bu da ulu, -
Azərbaycan - Türkiyə.

Bir sözlə, bu gün bir daha hər kəs anlamış oldu ki, Azərbaycan-Türkiyə, Türkiyə-Azərbaycan dostluq və qardaşlığı maraqlar, mənfəətlər üzərində qurulmayıb, quru sözlərdən ibarət deyil, sözdə, əməldə, konkret fəaliyyətdədir. Və bu günə qədər bu iki dövlət qoşa qanad kimi, birlikdə addımlayıb, birlikdə bir çox möhtəşəm qələbələrə, nailiyyətlərə, uğurlara imza atıb, bundan sonra da birlikdə addımlayaraq, növbəti parlaq qələbələrə, zəfərlərə imza atacaqlar.

**RƏFİQƏ KAMALQIZI**

# Heydər Əliyev-100

## Dövlət Statistika Komitəsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan tədbir keçirilib



**Mayın 2-də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan tədbir keçirilib.**

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Komitənin foyesində ucaldılan büstü ziyarət olunub, önünə gül dəstələri düzülərək əziz xatirəsi bir dəqiqəlik sükutla ehtiramla yad edilib.

Tədbirdə giriş nitqi ilə çıxış edən Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov hər zaman azərbaycanlı olması ilə fəxr edən, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə vətəninə, xalqına bağlı olan dünya şöhrətli siyasətçi və böyük dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin bütün dövrlərində Vətən və xalq qarşısında misilsiz xidmətləri, xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi barədə məlumat verib. O bildirib ki, Ümummilli Lider Heydər Əliyev təkcə bu dövrdə deyil, bütün həyatı boyu Azərbaycanın və onun xalqının rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanıb.İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasını, onun uzaqgörən və müdrik siyasətini keyfiyyətcə yeni müstəvidə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi, həmçinin gərgin əməyi və yorulmaz fəaliyyəti ilə respublikamızda aparılan islahatlar və əldə olunmuş böyük nailiyyətlərdən bəhs edən Tahir Budaqov ölkəmizin sürətlə və hərtərəfli inkişaf etməsini, dövlətimizin daha da qüdrətlənməsini xüsusi vurğulayıb. Qeyd edib ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz 30 ilə yaxın işğal altında olan torpaqlarımızı 44 günlük Vətən müharibəsində azad edib, ərazi bütövlüyümüz bərpa olunub.























Sonra Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunan film nümayiş olunub.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü Əli Həsənov, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev və Dövlət Statistika Komitəsinin Ümumi şöbəsinin müdiri Sevda Süleymanova Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən bəhs edərək, tarixə öz adını əbədi həkk etmiş nadir şəxsiyyətin, hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilmiş, vətəninə hədsiz məhəbbət, xalqının tarixinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə böyük sevgi nümunəsi olan qüdrətli siyasi xadimin həyat və fəaliyyətindən danışmışlar. Dahi şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi illərin intibah, milli tərəqqi, müstəqil dövlət quruculuğu dövrü olduğu qeyd edilən tədbirdə Ulu Öndərin müstəqil Azərbaycanın inkişafındakı misilsiz xidmətləri minnətdarlıq hissi ilə xatırlanmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilən uğurların Ulu Öndər Heydər Əliyevin zəkasının təcəssümü, bizə əmanət qoyduğu ideyalarının təntənəsi olduğunu xüsusi qeyd etmişlər.

Sonra Dövlət Statistika Komitəsinin aparatının bir sıra əməkdaşlarına Yeni Azərbaycan Partiyası sıralarına keçmələri ilə bağlı vəsiqələr təqdim olunmuş, eyni zamanda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan şahmat üzrə turnirin qalibləri mükafatlandırılmışdır.

# "Bizim dostluq və qardaşlığımız tarixi sınaqlardan çıxıb"

**"Azərbaycan-Türkiyə münasibətləri dahi liderlərimiz Heydər Əliyev və Mustafa Kamal Atatürkün "Bir millət, iki dövlət" və "Sevinciniz sevincimiz, kədəriniz kədərimizdir" müdrik kəlamları üzərində inkişaf edir". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.**



Onun sözlərinə görə, bizim dostluq və qardaşlığımız tarixi sınaqlardan çıxıb: "100 il əvvəl də Azərbaycan Türkiyə bir yerdə olublar və çətin günlərdə bir-birinə qardaşlıq dəstəyini ifadə ediblər. Bu gün də bu qardaşlıq prezidentlər cənab İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan şəxsində daha da möhkəmlənmiş və Prezidentimizin qeyd etdiyi kimi artıq "Bir yumruğ"a çevrilmişdir".

Deputat sözlərinə belə davam edib: "Son üç ilin xronologiyasına diqqət etsək görərərik ki, belə dəstəyi qanı, canı və ruhu bir olan xalqlar bir-birinə bu qədər göstərə bilərlər. Avropada keçirilən bir beynəlxalq tədbirdə Türkiyənin iştirak etməməsindən istifadə edən düşmənlər Türkiyənin ünvanına ittihamlı ifadələr işlətmək istəyəndə tədbirdə iştirak edən Prezident İlham Əliyev söz alaraq demişdi ki, "Bu gün Türkiyə burada yoxdursa, mən burdayam" deyərək cavabını vermişdi.

44 günlük Vətən müharibəsi başlayan ilk gündə Türkiyə prezidenti Ərdoğan, "Türkiyə hər türlü yardımla sonacan can Azərbaycanın yanındadır" demişdi və F-16 təyyarələrini Azərbaycanda saxlayaraq düşmənlərimizin göz dağına çevirmişdi. Müharibədən sonra Bakıda "Texnofest" festivalının keçirilməsi, müasir texnologiyaların nümayişi və Türkiyədə keçirilən texnofest festivalında Prezident İlham Əliyevin iştirakı, o cümlədən Kahramanmaraşda Azərbaycan şəhərciyinin tikiləcəyini bəyan etməsi əsil qardaşlığın təzahürüdür.

Türkiyədə yanğın və zəlzələ baş verəndə "Qardaş qardaşdan soruşmadan yanında olmalıdır" deyərək bütün Azərbaycan köməyə səfərbər olunmuşdu. Belə ki, canımız, qanımız və ruhumuz olan qardaş Türkiyə ilə Azərbaycan "Bir millət, iki dövlət və bir yumruqdur"lar. Bu o qədər güclüdür ki, düşmənlərimiz həmişə yumruğumuzu görəndə xar olacaqlar".

***Ayşən Vəli***

# Möhtəşəm uğurlarımızın təməlində Heydər Əliyev ideyaları dayanır







**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Nərimanov rayon təşkilatı mayın 2-də "Heydər Əliyev - bir əsrə sığmayan ömür" mövzusunda tədbir keçirib. Əvvəlcə Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin məzarı ziyarət olunub, məzarın önünə gül dəstələri düzülüb, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb.**

Tədbirdə Azərbaycan Dövlət Xor Kapellasının ifasında Dövlət Himni səsləndirilib.

Sonra Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyev bildirib ki, Heydər Əliyev irsi milli dövlətçilik tarixidir, çünki o, bir-birindən kəskin fərqlənən iki ayrı dövrdə - həm SSRİ dönəmində, həm də müstəqillik illərində respublikamıza uğurla rəhbərlik edib, milli tərəqqini - iqtisadi inkişafı, mədəni intibahı və siyasi yüksəlişi təmin etməyə müvəffəq olub. S.Vəliyev vurğulayıb ki, Ümummilli Liderin iki fərqli dövrdə gördüyü işlər Azərbaycanın siyasi simasını, milli obrazını formalaşdırıb: "Müasir müstəqil Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Bugünkü qüdrətli Azərbaycanın lideri, Müzəffər Ali Baş Komandan İlham Əliyev məhz Ulu Öndərin yolunu davam etdirərək qalib sərkərdə kimi adını qızıl hərflərlə tarixə yazdırdı, xalqımızın Qarabağ arzusunu yerinə yetirdi".

Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Elgin Həbibullayev deyib ki, Ümummilli Lider öz həyatını müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna qovuşmasına həsr edib. E. Həbibullayev müstəqil Azərbaycan dövlətinin uğurlarının təməlində Heydər Əliyev ideyalarının dayandığını və Ulu Öndərin uzaqgörən siyasətinin Azərbaycanı gələcəyə inamla aparan Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyib.

Daha sonra videoçarx nümayiş olunub.

Tədbirdə YAP Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru, professor Dilarə Seyidzadə dahi şəxsiyyət Heydər Əliyevlə birgə çalışdığı illərdən və xatirələrdən geniş bəhs edərək Onun dövlətçilik və idarəçilik prinsiplərinin mükəmməlliyini, dünya liderləri arasında nə qədər böyük nüfuz sahibi olmasını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Azərbaycanın Xalq şairi Nəriman Həsənzadə, Əməkdar artist Tahir İmanov çıxış edərək Ulu Öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinə və bu sahənin inkişafına verdiyi əvəzsiz töhfədən danışıblar.

Tədbirdə, həmçinin çıxış edən YAP İdarə Heyətinin üzvü, kimya elmləri doktoru Əfsun Sucayev, Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının və Nərimanov Bələdiyyəsinin sədri Təmraz Tağıyev, YAP Təftiş Komissiyasının üzvü Musa Musayev bildiriblər ki, 1993-2003-cü illərdə Ulu Öndərin rəhbərliyi ilə görülən işlər yeni Azərbaycanın parlaq gələcəyini inşa etmişdir. Heydər Əliyevin müstəqillik dönəmində ölkəmizə rəhbərlik etdiyi dövr, eyni zamanda, Azərbaycanı böyük Zəfərə aparan yolun başlanğıcı olmuşdur.

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev - bir əsrə sığmayan ömür" mövzusunda keçirilən yazı müsabiqəsinin qalibləri və Heydər Əliyevin bir əsrə sığmayan ömrünü öz rəsm əsərində canlandıran gənc rəssam mükafatlandırılıb. Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, partiya sıralarına yeni qəbul olunmuş şəxslərə isə üzvlük vəsiqələri təqdim edilib. Tədbir bədii hissə ilə davam edib. Sonda xatirə şəkli çəkdirilib.



**MƏTLƏB**

*Metlebsalahov@mail.ru*

# Çətin mayıs başladı...

Bizdə may, Türkiyədə mayıs ayı artıq başlayıb. Bu o deməkdir ki, 14 may tarixində Türkiyədə keçiriləcək prezident və parlament seçkilərinə çox az vaxt qalıb. Dünya siyasətində daşın daş üstündə qalmadığı, yeni dünya xəritəsinin yaradılması üçün insan qanının bulaq suyuna döndərildiyi vaxtda həm də diqqətlər Ankaradadır. Dünyanın siyasi gücləri üçün son illər arzuolunmaz güc halına gələn qardaş Türkiyə, mayın 14-də həm də qorxunc hədəf halındadır. Xüsusilə okeanın o tayından başlayan təzyiqlər daha kritik xarakter alıb. Bir tərəfdən Türkiyədəki müxalifətə var gücü ilə dəstək verən Ağ Ev, digər tərəfdən hazırkı Rəcəb Tayyip Ərdoğan hökuməti əleyhinə ən xırda detallardan belə zərgər dəqiqliyi ilə istifadə etməyə, Türkiyə ictimai rəyini AK Partiya hakimiyyətinə qarşı ayağa qaldırmağa çalışır.

Məqsəd bəllidir: mayın 14-dəki seçkilərə qədər ictimai rəyi müxalifətin xeyrinə dəyişmək, daxildəki bir sıra problemləri mediada və sosial şəbəkələrdə qabartmaqla seçici səslərini "altılı masa"nın vahid namizədi, CHP lideri olan Kamal Kılıçdaroğluna yönəltməkdir. Türkiyədə medianın kiritik may ayı kimi önə sürdüyü bu ayda elə ilk gərginlik R.T.Ərdoğanın səhhəti ilə bağlı yaradılan ajiotajla başladı. Türkiyə liderinin bir televiziya kanalına müsahibə zamanı səhhətinin qəflətən pisləşməsi sanki qərb dairələri üçün göydəndüşmə oldu. Bütün günü sosial şəbəkələrdə "can həkimi" libasına bürünən qərb trolları, guya hazırkı prezidentin seçkilərdə iştirakının mümkün olmayacağı, Ərdoğanın səhhətinin ciddi şəkildə zədələndiyi barədə çığır-bağır salırdılar. Ta ki, Türkiyə prezidenti İstanbulda keçirilən "TEKNOFEST" festivalına qatılana qədər. R.T.Ərdoğanın mədəsindəki dərinliklərə qədər "analiz aparan" qərb ideoloqları və Türkiyədəki müxalifət düşərgəsi, yəqin bu fiaskodan sonra yeni səs-küylü hadisə üçün çalışacaqlar. Çünki mayın 14-ə qədər onlara rahat yuxu əməllicə haramdır...

Xüsusilə qərb dairələri 20 ildir hakimiyyətdə olan, bütün seçkilərdə müxalifətə qarşı əzici qələbə qazanan R.T.Ərdoğanın əleyhinə kürd məsələsini və qaçqın ərəblərin İstanbulda yaratdıqları xoşagəlməz vəziyyəti daha çox önə sürürlər. Türkiyə hakimiyyətinin PKK-nın siyasi qanadı kimi səsləndirdiyi HDP-ni də K.Kılıçdaroğlunu müdafiə etməyə sövq edən qərb dairələri, qardaş ölkədəki milli azlıqların səslərinin də CHP liderinə verilməsi üçün təbliğat maşınını işə salıblar. Bəli, onlar R.T.Ərdoğanın 20 illik hakimiyyətinə son qoymaq üçün çapalayırlar. Ötən əsrin sonların və 2000-ci illərdəki ələbaxım, iqtisadiyyatı və sənayesi, texnoloji imkanları olmayan, NATO-nun sözəbaxan üzvlərindən biri olmuş Türkiyənin hazırkı müstəqil xarici siyasət kursu, güclü hərbi sənayesi, dünya siyasətində ağır çəkili qüvvələrdən birinə çevrilməsi, xüsusilə Rusiya-Ukrayna müharibəsindəki etibarlı vasitəçiliyi, şəxsən Ərdoğanın xarizmatik liderlik qabiliyyəti ilə taxıl kalidorunun açılması ilə dünyanın ciddi ərzaq böhranından qurtula bilməsi, - bütün bunlar qərb dairələri üçün dözülməzdir.

Onlara heç bir nüfuzu və regiondakı proseslərə təsir imkanları olmayan, qərbin dirijor çubuğu ilə idarə edə biləcəyi Türkiyə lazımdır. Düzdür, "Ərdoğan olmazsa Türkiyə olmayacaq" düşüncəsi də zərərlidir. Bütün hakimiyyətlərin bir sonu olur, bu qaçılmazdır. Amma dünya siyasətinin hazırkı gərgin və mürəkkəb vaxtında Türkiyə üçün Ərdoğan faktoru çox önəmlidir. R.T.Ərdoğanın əleyhdarlarının da etiraf etdikləri kimi, türk siyasətində hazırda Ərdoğanı əvəz edəcək xarizmatik siyasətçi tapmaq çoxçox çətin məsələdir. Siyasi təcrübəsi və siyasi liderlik qabiliyyəti, dövlət idarəçilik təcrübəsi olmayan K.Kılıçdaroğlu, təcrübəsiz Əkrəm İmamoğlu, daha çox populyar çıxışları ilə gündəmə gələn Maral Akşener bu mürəkkəb dünya siyasi mühitində Türkiyəni idarə etmək gücündə deyillər. ən azı "altılı masa"nın son durumu bunu deməyə əsas verir. Düzdür, daima dünyadakı qanlı və xaos dolu "rəngli inqilabları" ilə məşhurlaşan qərb srateqlərinin qardaş ölkədə də "Türkiyə baharı" kimi bir ssenari hazırlamaq planı olmamış olmaz. Amma bu məsələdə türk xalqı ilə qərbdəkilərin fikirləri ciddi haçalanır. Türkiyə cəmiyyəti xaosa imkan verməyəcək qədər ayıqdır. Corc Sorosun milyonları çətin ki, Türkiyədə işə düşə bilsin. Çünki Türkiyə hazırda keçmiş günlərindən sürətlə uzaqlaşan, getdikdə dünya siyasətinə yelkən açan böyük bir gəmini xatırladır. 14 mayısda sükan dəyişərsə... bax əsl mərəkə onda qopacaq. Çətin mayıs başlayır. Sonu xeyirli olsun..

# Azyaşlı uşaqların məşqdə ölümünə kim cavabdehdir?

**İdmanın insan həyatındakı vacib rolu günü-gündən daha yaxşı başa düşülür. Kompüter və televizorun həyatımıza daxil olması ilə uşaqlar idmandan uzaq oturaq həyat tərzinə keçid ediblər. Bəs, uşaqlar üçün idmanın faydaları nələrdir? Uşaqlara idman müəllimi seçərkən nələrə diqqət etməliyik? Övladlarımızı idmana minimum neçə yaşından yazdırmaq mümkündür? SİA mövzu ilə bağlı araşdırma aparıb.**

ARAŞDIRMA



## Uşaqlar üçün idmanın faydaları

İdman uşağın psixoloji, sosial və fiziki inkişafına kömək edir. Fərdi idman növləri özünə inamın və məsuliyyət götürmə qabiliyyətinin inkişafına töhfə verərkən, komanda idmanı bir-birinə kömək etməyi və fərdi ambisiyaları idarə etməyə müsbət təsir göstərir.

İdmanla məşğul olan uşaq vaxtını düzgün istifadə etməyi öyrəndiyinə görə, məktəbdə uğur qazanır. Müntəzəm fiziki fəaliyyətlə uşağın gücü və dözümlülüyü artır, sümük inkişafına müsbət təsir edir, çəkiyə nəzarət əldə edilir. İdmanla, hərəkətsizlik və artıq çəki nəticəsində yetkinlik dövründə inkişaf edə biləcək ürək-damar xəstəliklərinin,



diabetin və digər sağlamlıq problemlərinin qarşısını almaq olar.

İdmana başlamazdan əvvəl uşağın idmanla məşğul olmasına mane ola biləcək sağlamlıq probleminin olub-olmadığı qiymətləndirilməlidir. Uşağın yaşı, anatomik-funksional quruluşu və gücü nəzərə alınaraq hansı idman növləri ilə məşğul olmaq üçün uyğun olduğuna qərar verilir.

## Hansı idman növü neçə yaşda olmalıdır?

5-7 yaş arası, yəni erkən uşaqlıq dövründə olan uşaqlar müntəzəm idman yerinə qaçış, tullanma, üzgüçülük kimi bütün bədən hərəkətlərini əhatə edən və böyük əzələ



qruplarını işlədən fəaliyyətlərə üstünlük verməlidirlər. Yaradıcılığı və tədqiqatı inkişaf etdirən oyunlar və sadə fiqurlarla rəqs fəaliyyətləri dəstəklənməlidir. Bu yaş qrupunda uşaq daha çox fərdi olduğu üçün onları fərdi fəaliyyətə yönəltmək lazımdır.

Orta uşaqlıqda, yəni təxminən 8-9 yaşlarında yuxarıda qeyd olunan fəaliyyətlərdən əlavə velosiped sürmək, komanda idmanı, öyrənmə fəaliyyətləri Kompleks fiqurları əhatə edən əsas idman hərəkətləri və rəqs fəaliyyətləri başlana bilər. Bu yaş dövründə qrup fəaliyyətləri ola bilər. Komanda mübarizəsi liderliyin və şəxsi nizam-intizamın inkişafı üçün vacibdir. Hər bir uşağa rəhbərlik etmək şansı verilməlidir.

10 yaşından sonra yarış tərzi fərdi, komanda idmanları və qrup fəaliyyətləri şəklində ola bilər.

## Xüsusi idman sahələri üzrə təhsil almaq üçün uyğun yaşlar

Gimnastika, futbol, basketbol, voleybol, atletika, tennis, xizək idmanı üzrə 9-11 yaş, güləş üzrə 12 yaş, velosiped idmanı üzrə 14 yaş, ağır atletika üzrə 15-16 yaş, boks üzrə 17 yaş.

## Ailələrin öhdəlikləri nələrdir?

- İdman etməklə uşağınıza nümunə olun.
- Məktəbdə və ya kənarda ailə fəaliyyət proqramlarında iştirak edin.
- Uşağınızı həvəsləndirin və istiqamətləndirin.
- Uşağınızı düzgün tənqidlə dəstəkləyin.

Uşaqların anatomik, fizioloji və psixoloji inkişafı davam etdiyi üçün məşq proqramları yaradılarkən diqqətli olmaq lazımdır. Unutmayın ki, uşağın təhlükəsizliyi həmişə birinci yerdədir.

Uşağın dözümlülüyünü və bacarığını artırmaq üçün yeni fəaliyyətlər aşağı intensivliklə başlamalı və tədricən artırılmalıdır. Uşaqlarda termorequlyasiya sistemi dediyimiz mühitə uyğun bədən istiliyinin tənzimlənməsi sistemi tam inkişaf etmədiyi üçün çox isti və soyuq mühitlərdə idman edərkən orqanizmin uyğunlaşmasında çətinliklər yaşana bilər. Buna görə də, uyğun geyim və kifayət qədər maye qəbulu çox vacibdir.

Uşaqların həyata hazırlaşarkən ilk gördükləri və nümunə götürdükləri modellər valideynləridir. Valideynlər idmanla iç-içə olan sağlam həyat tərzini bir ailə kimi mənimsəyib, onu ailənin ictimai fəaliyyətinə çevirə bilsələr, uşaqlar bu vərdişi həm yetkin həya-



tına, həm də öz övladlarına ötürə bilərlər.

İdman uşaqları öz qabiliyyətlərindən xəbərdar edir. İdmanın uşaqlar üçün təkcə fiziki deyil, həm də sosial və psixoloji inkişaf baxımından çoxlu faydaları var. Unutmayın ki, idmana sərf olunan vaxt boşa getmir və valideynlər övladlarını idmana həvəsləndirməlidirlər.

- Bir sıra araşdırmalar göstərir ki, idmanla məşğul olan uşaqların məktəbdə uğurları məşğul olmayanlardan daha yüksəkdir.
- İdman uşaqlara nizam-intizam və məsuliyyət hissi verir.
- Duyğularını idarə etməyi öyrənirlər.
- Uşaqlar idman yarışlarında sürətli olmalı və tez qərarlar verməlidirlər. Bu səbəbdən idmanla məşğul olan uşaqlar qərar qəbul etmə, riyazi təfəkkür və imkanları sürətlə inkişaf etdirə bilirlər.

Hesablama kimi mövzularda da özlərini təkmilləşdirirlər.

- Uşaqların sosial bacarıqlarının inkişafında idmanın böyük rolu var. İdman dostluq münasibətlərini möhkəmləndirir, komanda işinin və əməkdaşlığın faydalarını öyrədir. Uşaqlarda idmanla yanaşı ünsiyyət bacarıqları da inkişaf edir. Uşaqlar bir komandanın üzvü olduqda, nöqsan tapmaqdansa konstruktiv olmağı, tənqid etməkdənsə paylaşmağı öyrənirlər. Uşaqların ilk növbədə kollektivə adaptasiyası artır, sonra yaxın ətrafı, dostları ilə ünsiyyəti yaxşılaşır. Bu səbəbdən, idmanla məşğul olan uşaqlar adətən daha sosial olurlar.
- İdmanla məşğul olmaq uşaqların özünə inamının artırılmasında böyük rol oynayır. Özlərinə inamları artdıqca həyat sevincləri də artır.
- Qabiliyyətlərini real şəkildə dərk edir və özlərini daha yaxından tanıyırlar. İdman onlara öz güclü və zəif tərəflərini kəşf etməyə imkan verir.
- Uşaqlar asudə vaxtlarından idmanla pozitiv şəkildə istifadə edirlər.
- İdmanla məşğul olmağın diqqətə də təsiri var. Araşdırmalar göstərir ki, idmanla müntəzəm məşğul olmaq diqqəti toplamaq qabiliyyətini artırır.
- Dırnaq yemə, yataq islatma, nəcis etmə, oğurluq, dərsdən yayınma və s. kimi davranış pozuqluğu olan uşaqlarda idman mühüm rol oynayır.
- Müntəzəm olaraq idman edən uşaqların immun sistemi digər uşaqlara nisbətən daha güclü olur. Bu səbəbdən uşaqların idmanla məşğul olması onların xəstəliklərlə daha az qarşılaşmasına şərait yaradır. Həmçinin, onlar artıq piylənmə kimi sağlamlıq problemləri yaşamırlar.

## İdman ölümləri

Xatırladaq ki, aprelin 29-u 2016-cı il təvəllüdlü Fərid Bakarovun Sumqayıt Şəhər Uşaq Xəstəxanasında ölməsi barədə şəhər prokurorluğuna məlumat daxil olub. İlkin araşdırma zamanı 1994-cü il təvəllüdlü Mehman Xəlilovun Sumqayıt şəhəri ərazində yerləşən məktəblərdən birində sambo idman növü üzrə keçirilən məşq zamanı Fərid Bakarova xəsarətlər yetirməsi nəticəsində sonuncunun həmin xəsarətlərdən ölməsinə əsaslı şübhələr müəyyən edilib.

Sumqayıtda 7 yaşlı uşağa xəsarətlər yetirərək ölümünə səbəb olmaqda ittiham olunan idman müəllimi Mehman Xəlilovun barəsində həbs qətimkan tədbiri seçilib.

Bu barədə qərar Sumqayıt Şəhər Məhkəməsinin hakimi Elçin Məmmədovun sədrliyi ilə keçirilən iclasda elan olunub. Qərara əsasən, M.Xəlilovun barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Faktla bağlı Sumqayıt Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Mehman Xəlilov iş üzrə şübhəli şəxs qismində tutulub.

## Dünyada idman ölümləri

- 20 oktyabr 2014-cü il tarixində Hindistanın Birma sərhədində yerləşən Xavzavl şəhərində oynanılan matçın 62-ci dəqiqəsində Bethlehem Vengthlang üçün vurduğu bərabərlik qolunu bir-birinin ardınca yuvarlanaraq qeyd edən Biaksangzuala qəfil yerdə qalıb. Komanda yoldaşlarının hərəkətsizliyi ilə diqqət çəkən futbolçu təcili olaraq xəstəxanaya yerləşdirilib. Qaldırıldığı xəstəxanada onurğa beyninin ağır zədələnməsi aşkarlanan gənc futbolçu 5 gün reanimasiya şöbəsində müalicə olunduqdan sonra dünyasını dəyişib.
- 2009-cu ildə dünya üçüncüsü olan ABŞ-dan olan uzun məsafəli üzgüçü Frensis Krippen 23 oktyabr 2010-cu ildə Birləşmiş Ərəb Əmirliklərinin Fuceyrə şəhərində keçirilən 10 km açıq havada üzgüçülük mövsümünün son mərhələsinə qatıldı. Meksikadakı əvvəlki yarışda qalib gələn Krippenin finiş xəttinə çata bilməməsi fərq edildikdən sonra axtarışlar başlayıb. Cəsədi finişin keçiriləcəyi sahildən təxminən 500 metr aralıda tapılan 26 yaşlı üzgüçünün 1,5 saat sonra ürəyində yaranan anomaliya və yarış şərtlərinin çətinliyi səbəbindən astma xəstəliyindən öldüyü müəyyən edilib.
- Jokey Frenk Hayes 4 iyun 1923-cü ildə ABŞ-ın Nyu-York şəhərindəki Belmont Parkında keçirilən su maneəli yarışının ortasında ürək tutmasından vəfat edib.
- Hayesin 35 yaşlı "Sweet Kiss" atı atlı yəhərində ölü yatarkən yarışı qazananda hadisə daha dramatik oldu. Hayes "ölüykən yarışlarda qalib gələn yeganə idmançı" kimi tanınır.

Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov: "2016-cı il təvəllüdlü Fərid Bakarovun ölməsi böyük faciədir. Azyaşlı uşağın dünyasını dəyişməsi çox ağrılıdır. Allah ona rəhmət etsin, valideynlərinə səbr versin.

İlk növbədə, belə hadisənin baş verməsi məsuliyyət yükünü məşqçinin üzərinə qoyur. İstər federasiyadan lisenziya almış, istərsə də peşəkar məşqçi məsuliyyət yükünü üzərindən götürmür. Belə ki, Mehman Xəlilovun sambo idman növü üzrə məşqlər keçdiyi 19 saylı orta məktəbdə uşaqla davranışı çox böyük faciədir. Məşqçilərin uşaqlarını onlara həvalə edən valideynlər qarşısında böyük bir öhdəliyi olmalıdır.

Hər bir valideyn xüsusilə də azyaşlı övladını məşqə yazdırarkən mütəmadi olaraq məşqlərə gəlib nəzarət etməli, öz övladları ilə danışmalıdır. Təəssüflər olsun ki, uşağın geri dönüşü üçün heçnə mümkün deyil. Bununla bağlı videoların yayılması aidiyyatı hüquq mühafizə orqanları tərəfindən cinayətin açılması təbii ki, hadisəni törədənin öz cəzasını almasına gətirib çıxaracaq. Onun qanun qarşısında cavabdehliyi olacaq.

Xüsusi olaraq onu vurğulamalıyıq ki, valideynlər məşq keçilən yerə, oradakı şəraitə və məşqçi ilə ünsiyyətə xüsusi önəm versin, bilgili olsunlar. Bu çox vacibdir.

Digər tərəfdən, bu yaş qrupunda məşq keçən məşqçilərin də zaman-zaman həm narkoloji, həm psixoloji, həm insani, həm də məşqçi keyfiyyətlərini müəyyənləşdirən federasiyalar tərəfindən ixtisasartırma və nəzarət kursları olmalıdır".

*Ayşən Vəli*



# Yenidən qurulan Şuşamız!

Bugün işğaldan azad olunan Şuşamız dirçəlir. Alınmaz qala, Qarabağın tacı, mədəniyyətimizin beşiyi Şuşa Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biridir. Şuşanı 28 ildən çox əsarətdə saxlayan erməni işğalçıları onun simasını dəyişməyə cəhd göstərib, xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirib. Buna baxmayaraq, Şuşa sınmayıb, əyilməyib. Dövlətimizin başçısının qeyd etdiyi kimi, mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib.

Qədim tarixi olan Şuşa tarixin müxtəlif dönəmlərində "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılmışdır. Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi olan Şuşa şəhəri tarixən Azərbaycanın ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. Mənbələrdə qeyd olunduğu kimi, Azərbaycan xalqının tarixi ənənələrinin simvolu olan Şuşa qədim Xocalı-Gədəbəy mədəniyyətinin əhatə dairəsinə daxil olan ən qədim yaşayış yerlərindən birində yaranıb və daimi insan məskəninə çevrilib. Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. İngilis səyyah və alimləri C.Moryе və R.Burter Şuşanın qədimliyi ilə bağlı dəyərli mülahizələr ifadə etmişlər. Belə ki, C.Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. R.Burter isə yazırdı ki, Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır. Bütün bunlar Şuşanın hələ çox qədimdən mövcud olması haqqında fikir söyləməyə əsas verir.



## "ŞUŞANI YARADANLAR, ŞUŞA ŞƏHƏRİNİ QURANLAR, ŞUŞA QALASINI TİKƏNLƏR AZƏRBAYCAN TORPAĞININ SAHİBLƏRİ OLUBLAR"

Şuşanın tarixi bir yaşayış məskəni olduğunu ümummilli lider Heydər Əliyev belə ifadə etmişdir: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi şəhərdir, abidədir".

Tarixi dövrünə nəzər salsaq görərik ki, Pənahəli xan Cavanşirin 1750-ci illərin əvvəllərində inşa etdirdiyi Şuşa şəhəri onun şərəfinə Pənahabad adlanırdı. Bu, Pənahəli xanın şəhər ətrafına çəkdirdiyi qala divarları ilə əlaqədar idi. Mənbələrdə yazıldığı kimi, Qarabağ xanlığının mərkəzi Şuşa idi. İnzibati cəhətdən 22 mahala bölünən Qarabağ xanlığının 638 kəndi var idi. Xanlığın mərkəzi isə Pənahabad idi. Şuşa bir çox mənbələrdə "Şişə" kimi yazılır və adlanır. Bu da qalanın şüşə kimi təmiz və parlaq olması ehtimalına gəlir. Şuşanın "Şişə" şəklində ifadəsi 1795-1797-ci illərdə İranda şahlıq edən Ağa Məhəmməd Şah Qacarın (1742-1797) Şuşaya hücumu zamanı Qarabağ xanı İbrahim xana göndərdiyi və xalq arasında uzun zaman rəvayətləşən bir məktubunda ifadə edilmişdir. Azərbaycanın digər xanlıqları kimi, Qarabağ xanlığının da bayrağı var idi. Salnamələrdə yazıldığı kimi, Qarabağ xanlığının Şuşa, Bayat, Şahbulaq ərazilərində mədəni yüksəliş, sənətkarlıq xeyli inkişaf etmişdi. Sənətkarlar əsasən Şuşa qalasında fəaliyyət göstərirdilər.

Sovet dövründə Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı. Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri, məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Ümummilli Lider Heydər Əliyev bu istiqamətdə sistemli və məqsədyönlü şəkildə tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət ayırırdı. Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən Ulu Öndər Heydər Əliyev bu məsələyə çox həssaslıqla yanaşmışdır. Ümummilli Lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. 1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edildi. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atıldı.



## "ŞUŞASIZ QARABAĞ, QARABAĞSIZ İSƏ AZƏRBAYCAN YOXDUR"

Ermənilərin Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində 1992-ci il mayın 8-də Şuşa şəhəri işğal edildi və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasəti həyata keçirildi. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv ediblər. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialı, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun, müğənni Bülbülün, musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeylərinin fondları qarət edilib.

Şuşanın abidələr şəhəri olduğunu söyləyən Ümummilli Lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək deyirdi: "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur". Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək, Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin noyabrın 8-də Şəhidlər xiyabanından xalqa etdiyi müraciətdə Şuşa şəhərinin azad edilməsi müjdəsini verdi. Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edildi. 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olundu. Qısa bir zamanda şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Dövlət başçısının Sərəncamı ilə Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilib.



## QAFQAZIN İNCİSİ OLAN ŞUŞADA YENİ YÜKSƏLİŞ DÖVRÜ

Bu gün Şuşamız işğaldan azad olunan digər ərazilərimiz kimi, yenidən qurulur. Cənab Prezident Şuşaya hər səfəri tarixi hadisələrlə yadda qalır. Şəhərdə inşa edilən yeni yaşayış kompleksinin tikinti işləri davam edir. Qədim mədəniyyət paytaxtımızda yaşayış kompleksinin yaradılması otuz ilə yaxın müddətdə doğma yurd-yuvalarına qovuşmaq həsrəti ilə yaşayan şuşalıların bu arzularına çatacağı günün lap yaxında olduğunu göstərir. Şuşada vaxtilə keçirilən Vaqif Poeziya Günləri və "Xarı bülbül" festivalı bərpa olundu. Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ermənilər tərəfindən güllələnmiş büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olundu və bu gün yeni bir yüksəliş dövrü başlayıb. Şuşa şəhərində, eləcə də işğaldan azad olunan bütün ərazilərdə olan bir çox tarixi-dini abidələrimiz bərpa olunur. Azərbaycanın mədəni paytaxtı və bütün Qafqazın incisi hesab olunan Şuşa şəhərində də infrastruktur layihələr icra olunur.Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Qısa zamanda həyata keçiriləcək yenidənqurma işləri nəticəsində Şuşa dünyanın ən gözəl şəhərləri siyahısında öz layiqli yerini tutacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Ərdoğan:

## Biz əfəndi olmağa deyil, xidmət etməyə gəldik

**Bütün dünya Rəcəb Tayyib Ərdoğanı böyük siyasətçi və Türkiyə kimi nəhəng bir dövlətin Prezidenti kimi tanıyır. O Prezident ki, dövlət başçısı kimi fəaliyyəti dövründə böyük Türkiyə, böyük türk xalqının bu günü və gələcəyi üçün misilsiz xidmətlərinin şahidi olduq. Zamanın qısa kəsiyini əhatə edən və hər birimizin yaxşı xatırladığımız bu dövrün qısa xronikasına nəzər salmaq dediklərimizi təsdiq etmək üçün yetərlidir.**

Rəcəb Tayyib Ərdoğan hökuməti ilə Türkiyədə davam edən iqtisadi böhran dayandı, kəskin inflyasiyanın qarşısı alındı. Ən əsası, Ərdoğan ölkədə böyük korrupsiya qruplarını ifşa edərək məhkəmə önünə çıxardı. Eyni zamanda siyasi sahədə də Türkiyə daha aydın bir xəttə keçdi. Kipr məsələsində atdığı siyasi addımlarla bu məsələnin həllində daha dinamik bir hal nümayiş etdirdi. Eyni zamanda, Amerikanın İraqa müdaxiləsi zamanı Türkiyəni bacardıqca bu məsələdən kənarda tutaraq İraq bataqlığına düşməkdən qorudu. Türkiyənin Ermənistanla əlaqələr qurmasını tələb edən bəzi qüvvələrə qarşı da dayanan Ərdoğan hökuməti bu məsələdə Azərbaycan torpaqlarının işğaldan azad olmasını əsas şərt olaraq irəli sürdü və bu məsələdə iddialı oldu.

Söylənməsi vacib olan məsələlərdən biri isə hakimiyyətin pul siyasəti nəticəsində 2002-ci ildəki 600 milyon dollarlıq xarici borcun tamamilə aradan qalxaraq, 2012-ci ildə 48 milyard dollarlıq müsbət saldoya çatmasıdır. Təbii ki, söylənilən dövrdə Rəcəb Tayyib Ərdoğan Türkiyə Cümhuriyyətinin Baş naziri idi.

Prezident Rəcəb Tayyib Ərdoğanın 23 Aprel Milli Suverenlik və Uşaq Bayramı münasibətilə Akyazıda İdman Kompleksinin açılış mərasimindəki çıxışında səsləndirdiyi fikirlərdə, toxunduğu məsələlərdə isə onu Türkiyəni sevən, arzusunun yalnız onun intibahı olan bir siyasətçi, dövlət başçısı, əsil türk olaraq gördük. Öz hekayələrinə milləti sevməklə, Vətəni sevməklə başladıqlarını ifadə edən Prezident Ərdoğan, "Hər gün, hər həftə, hər ay, hər il bu sevgi və bu sevgi ilə başladıq, çatmaq etdik" dedi və onu da bildirdi ki, biz bu millətə xidmət etməyə gəlmişik, əfəndi olmağa deyil.

### Türkiyə "Covid-19" kimi, zəlzələnin də sınağından uğurla çıxır

Məlum olduğu kimi, 2020-ci ildə başlanan və bütün dünyanı təlatümə gətirən "Covid-19" pandemiyası Türkiyə Cümhuriyyəti üçün də həm böyük iqtisadi tənəzzüllə, həm də kütləvi insan ölümü ilə nəticələndi. Türkiyə Səhiyyə Nazirliyinin açıqlamasına görə 101 mindən artıq vətəndaş "Covid-19"un qurbanı olub. Bu gözəgörünməyən düşmənlə müharibə bitməmiş Türkiyədə 2023-cü il fevral ayının 6-da baş verən, ölkənin 11 bölgəsini əhatə edən zəlzələ miqyasına və ölüm sayına görə əsrin fəlakəti olaraq tarixin səhifələrinə yazıldı. Son məlumata əsasən, zəlzələ nəticəsində 50 min 783 nəfər həyatını itirib.

Ramazan ayında iftar proqramlarından birində Prezident Rəcəb Tayyib Ərdoğan bu məsələlərə münasibət bildirərək "Biz zəlzələ fəlakətinin altında qalmadıq, Allahın izni ilə qalmayacağıq",- deyib və qeyd edib ki, öncə "Covid-19" qlobal epidemiyasının bir çox böhranı və onun ölkə daxilində əks olunması sınağı ilə üzləşdik. Üstəlik, əsrin fəlakətinin, canımızı alan, şəhərlərimizi yerlə-yeksan edən 6 fevral zəlzələlərinin nəticələri ilə üzləşdik. Adıyaman Millət vəkilimiz Yakup Taş və bütün ailəsi yaşadığımız böyük fəlakətdə həyatını itirdi. Bu münasibətlə bütün vətəndaşlarımıza Allahdan rəhmət diləyirəm. Onu da bilirəm ki, bu zəlzələlərdə yaxınlarını itirən çoxlu deputatlarımız var. Bu münasibətlə onlara bir daha başsağlığı verirəm. Deyirəm ki, Rəbbim ölkəmizi hər cür bəlalardan, qəzalardan, bəlalardan qorusun.

Digər sınaqlar kimi zəlzələ fəlakətinə də düşmədik, Allahın izni ilə düşməyəcəyik. Qısa müddətdə şəhərlərimizi ayağa qaldıracaq, xalqımızın öz gələcəyinə ümidlə baxmasını təmin edəcəyik. Sistemin təmin etdiyi sürətli qərar qəbuletmə və güclü icra qabiliyyəti sayəsində ölkəmiz qlobal böhrandan ən az itki və ən çox fayda ilə çıxmağı bacarmışdır. İnşallah, zəlzələ fəlakətinin də öhdəsindən eyni şəkildə gələcəyik".

23 apreldə Sakaryada olan Prezident Rəcəb Tayyib Ərdoğan zəlzələ bölgəsinə 4-5 dəfə getdiyini və zəlzələdən zərər çəkmiş vətəndaşları heç vaxt tək buraxmayacaqlarını bidirib. "Əsrin fəlakəti"ndə həyatını itirənlərə Allahdan rəhmət diləyən və Sakaryanın bu ağrını yaxşı bildiyini xatırladan Ərdoğan 24 il əvvəl, 1999-cu il avqustun 17-də Sakaryada və demək olar ki, bütün Mərmərə bölgəsində baş verən zəlzələ ilə bağlı ağrılı xatirələrin hələ də ürəklərdə olduğunu dilə gətirib. Qeyd edib ki, zəlzələnin 75-ci günündə, ilk kənd evlərini çatdırmaq üçün kifayət qədər tez çalışdıq. İnşallah 650 min yeni ev tikib zəlzələdən əziyyət çəkən şəhərlərimizi ayağa qaldıracağıq.

Bütün ölkəni zəlzələyə hazırlamaq üçün hərtərəfli şəhər çevrilmə layihələri həyata keçirdiklərini izah edən Prezident Ərdoğan sözlərini belə davam etdirib: "Mümkün bir zəlzələ zamanı ən böyük təhlükə ilə üzləşən İstanbuldan başlayaraq tarixi bir transformasiya kampaniyasına başlayırıq. İstanbulda riskli yaşayış yerlərini dəyişdirmək istəyən vətəndaşlarımıza konvertasiya dəyərinin yarısını qrant olaraq veririk və qalan yarısını çox sərfəli şərtlərlə borc götürmə fürsəti təqdim edirik. 300 min evi bu şəkildə çevirərək İstanbuldakı bütün riskli binaları 5 il ərzində yeniləməyi hədəfləyirik. Təbii ki, ölkəmizin hər yerində riskli strukturları dəyişdirəcəyik. Sülh, təhlükəsizlik, sabitlik, investisiya, istehsal, inkişaf olmadan gələcəyimizə necə etibar edə bilərik? Bu, millətimizə verdiyimiz ən böyük vəddir".

### Türkiyə: gənclərin təhsilinə və ailə qurmasına yeni hədəflər

Rəcəb Tayyib Ərdoğanın fəaliyyət proqramının önəmli hissəsindən biri də gənclərin təhsil almaq, ailə qurmaq, məşğulluğunun təmin edilməsi, ümumilikdə inkişafı məsələləridir. Odur ki, ötən illərin hər birində təhsil sahəsindəki yeniliklərin, gənclərin işlə təminatının və yaşayış şəraitinin yaxılaşdırılmasının hər zaman gündəmdə olduğunu görmək olub.

Ərdoğan 23 apreldə Sakaryada olarkən çıxışında yenidən gənclərlə bağlı məsələyə toxunaraq qarşıda duran vəzifələrdən söhbət açmış, gənclərin gələcəyi naminə planlarını açıqlamışdır. Bütün bunlar isə görülən işlərin davamı, gənclərin diqqət mərkəzində olmasının, onlara göstərilən qayğının təzahürüdür. Elə məhz bu diqqət və qayğının nəticəsidir ki, türk gənclər təhsilin bütün sahələrində fərqlənir, ən yaxşı mütəxəssis kimi fəaliyyətə başlayırlar.

Rəcəb Tayyib Ərdoğan: "Türkiyənin zənginliklərini millətimizin hər bir fərdinin gündəlik həyatında əks etdirmək əzmimizin daha bir mühüm əlaməti olaraq indi nəyi qurduğumuzu bilirsinizmi? Analar, gənclər, Ailə və Gənclik Bankını qururuq. Bu nə deməkdir, onun mənbəyini haradan tapacaqsınız, deyənlərin cavabı: Mənbəyini ölkəmizin Qara dəniz qazı kimi təbii sərvətlərindən götürəcəyik. Bu bankı nə edəcək? Ailə institutunu gücləndirəcək, bir çox işlərin maliyyəsini də buradan əldə edəcəyik".

Ərdoğan söhbətində xarici ölkələrdən birinin də bu sahədə təcrübəsini əsas gətirərək deyib: Norveç təbii qaz və neftinin müəyyən faizini, məsələn, 25 faizini ehtiyat kimi istifadə edir və gənclərinə ayırır. Ümid edirəm ki, biz də öz ölkəmizdə bunu edəcəyik...Təhsildən tutmuş işə, biznes qurmağa, evlənməyə qədər atdıqları hər addımda gənclərimiz yanındayıq. Təhsilin hər pilləsində təqaüd imkanlarını genişləndirəcəklərini açıqlayan Prezident Ərdoğan: "Gənclərimizə bir dəfə vergisiz cib telefonu və kompüter hüququ verəcəyik. Gənclərimizin məşğulluğunu asanlaşdıracağıq. Öz biznesini qurmaq istəyən gənclərimizə qrant və kredit dəstəyi verəcəyik.150 min lirə faizsiz 48 ay müddətlə 2 il güzəştlə kredit verəcəyik. Evlənsələr, evlərini rahatlıqla qura bilərlər".

Prezident Ərdoğan eyni zamanda ev xanımlarının mükafatlarının üçdə birini ödəyərək pensiyaya çıxmasına dəstək verilməsindən bəhs edərək deyib: Beləliklə, istəyən hər ev xanımı çox asan şərtlərlə pensiyaya çıxmaq və öz gəlirinə sahib olmaq imkanı əldə edəcək.

### Türkiyənin 60 illik arzusu da artıq reallaşdı

Bu 60 illik arzunun da gənclərin gələcəyinə hesablanmış olduğunu aprelin 28-də səhər saatlarında Prezident Rəcəb Tayyib Ərdoğanın sosial media hesabından paylaşım edərək gənclərə Türkiyənin nüvə enerjisi səyahətindən danışmasında açıqca görmək olur. Gənclərə üz tutaraq ilk cümləsini "Əziz gənc qardaşım" deyərək başlayan Ərdoğan Türkiyənin 60 illik arzusunu gerçəkləşdirməkdən qürur duyduqlarını, Akkuyu Atom Elektrik Stansiyasına nüvə yanacağı gətirdiklərini bildirib.

Elektrik stansiyasının, beləliklə, "nüvə obyekti" kimliyini qazandığına işarə edən Ərdoğan, "Yaxşı, niyə 60 il? Bunun hekayəsini size danışım. Türkiyənin nüvə enerji səyahəti ilk dəfə 1956-cı ildə Menderesin sonlarında başladı. Lakin bütün digər inkişaf addımları kimi, bunu da 27 may çevrilişi izlədi. Təəssüf ki, 70-ci illərin sonunda bir Avropa ölkəsi ilə atom elektrik stansiyasının tikintisi layihəsi uğurlu alınmadı, çünki 100 milyon dollar tapılmadı. Təəssüf ki, mərhum Özalın səmimi səyləri məqsədinə çatmadı",- deyə bildirmişdir.

Türkiyənin buna görə sadəcə vaxt itirmədiyini, milyardlarla dollar enerji borcunu ödədiyini və milyardlarla dollarlıq resursdan məhrum olduğunu qeyd edən Ərdoğan: Hər şeydən əvvəl, enerji təchizatının təhlükəsizliyi və müstəqilliyimiz baxımından əhəmiyyətli bir fürsət boşa çıxdı. Burada 2010-cu ildə imzaladığımız müqavilə ilə bu uğursuz bəxtimizi dəyişdirdik. Maneələrə və qarayaxma kampaniyalarına baxmayaraq, inkişaf etmiş ölkələrin yaşıl enerji texnologiyasını gətirdik. Akkuyu AES tam gücü ilə işlədiyi zaman 35 milyard kilovat-saat elektrik enerjisi istehsal etməklə həm ölkəmizin elektrik istehlakının 10 faizini qarşılayacaq, həm də ixtisaslı kadrların yetişdirilməsinə öz töhfəsini verəcək.

Ümid edirəm ki, siz bizim atom elektrik stansiyasının ən böyük faydasını görəcəksiniz. Siz bizim göz bəbəyimiz, ümidimizsiniz. Biz sizi sevirik, güvənirik, siz işıqlı gələcəyimizsiniz... Türk Əsrini qurana qədər sizin üçün işləməyə davam edəcəyik.

### Yeni yüz ilə yeni uğurlarla...

Əsrlərin Türkiyəsi olan bu ölkə 100 ildir ki, cümhuriyyətini yaradıb. 100 ildir ki, Türkiyə müstəqil, azad bir ölkə, vətəndaşları isə bu azad, suveren, müstəqil ölkənin azad insanlarıdır. Respublika dövrünün 100 ilini geridə qoyan Türkiyə bu ildən etibarən yeni-ikinci yüzilliyə qədəm qoyub. Təbii ki, bu yeni başlanğıcda Türkiyənin gözəl gələcəyi üçün vədlər var. Bu vədlərsiz Türkiyə və onun gələcəyi ola bilərmi? Bu baxımdan da bütün siyasi, iqtisadi gedişlər elə bir kontekstdə davam etdirilməlidir ki, Türkiyə dünyada öz nəhəngliyini, əzmini qoruyub saxlaya bilsin.

Bu barədə Prezident Rəcəb Tayyib Ərdoğanın fikirləri də olduqca maraqlıdır: Coğrafiyamızda min illik varlığımızın və suverenliyimizin hər bir mərhələsi ayrıca mübarizədən keçib. Altı əsrlik Osmanlı İmperatorluğunun tarix səhnəsindən çəkilməsindən sonra qurulan sonuncu dövlət olan Türkiyə Cümhuriyyətinin birinci əsri geridə qaldı. Respublikamızın bu birinci əsri də özlüyündə kifayət qədər enişli-yoxuşlu olub. Bizim təkpartiyalılıq dövründən çoxpartiyalı siyasi həyata keçidimiz, ardınca çevrilişlər, bir sıra memorandumlar, demokratiya və inkişaf addımları, iqtisadi çətinliklər və s. terror hücumları. Buna qonşularımız və müttəfiqlərimizlə yaşadığımız gərginlikdən tutmuş daha çox mövzular əlavə edə bilərik. Türkiyənin bu gün olduğu yerdə geridə qoyduğumuz birinci əsrin zirvəsi olsa da, Türk əsrinin ilk addımıdır. Bundan sonra hədəfləyirik. 2023-cü ildən hədəflərimizin işığında Türkiyənin Əsrin Türkiyəsi kimi görməyə doğru irəlilədik.

Ərdoğan vurğulayıb ki, son illərdə ardıcıl problemlər olmasaydı, bu gün hədəflərə çox daha yaxın olardı: "Qazandığımız təcrübələr edəcəyimiz bərpa işlərini istiqamətləndirəcək".

Son 20 ildə qurduqları güclü demokratiya və inkişaf infrastrukturunun verdiyi imkanlardan istifadə edərək itkiləri tez bir zamanda kompensasiya edə biləcəkləri bir dinamizmə nail olduqlarını izah edən Ərdoğan deyib: Heç bir maneənin bu yüksəlişin qarşısını almasına və bizi geri çəkməsinə imkan verməyəcəyik. Allahın izni ilə ölkəmizi qarşıdakı dövrdə dünyanın ən yaxşı 10 iqtisadiyyatı sırasına daxil etmək hədəfinə doğru möhkəm addımlar atacağıq. Bu prosesdə əldə etdiyimiz təcrübələrlə sistemi qarşıdakı dövrdə daha da irəli aparmaq, daha səmərəli işləmək üçün bütün dünyaya birmənalı şəkildə nümayiş etdirdik ki, Prezidentin, deputatların, millətin nümayəndələrinin olduğu dünyada möhkəm durun və məqsədlərinə doğru möhkəm addımlar atın, heç bir tələ Türkiyəni yolundan döndərə bilməz və bizim yolumuzu kəsə bilməz.

Bəli, böyük Türkiyə həm də Azərbaycanın yaxın dostu, qardaşı və tərəfdaşıdır. Bu qardaşlıq və dostluğu bir daha 2020-ci ildə 44 günlük Vətən Müharibəsində Türkiyə xalqının Azərbaycanı dəstəkləməsində, bizimlə həmrəy olmasında gördük. Hərzamankı tərəfdaşlığımızın növbəti nümunəsini isə müharibədən sonra Qarabağın gələcəyi, regionun inkişafı naminə atılan addımlarda gördük. Bu sahədə ölkəmizin Prezidenti cənab İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın regionun gələcəyinə hesablanmış proqramları mövcuddur ki, bundan nəinki region, hətta dünya dövlətlərinin də yararlanacağı məlumdur. Ümidvarıq ki, qarşılıqlı tərəfdaşlıq bu iki qardaş ölkənin birgə inkişafı, regionda söz sahibliyinin möhkəmlənməsi ilə nəticələnək.

***Mətanət Məmmədova***

# “Azərbaycan-Türkiyə qardaşlığı qürur duyacaq bir dövr yaşayır”





Zəngin tarixə malik olan Azərbaycan-Türkiyə əlaqələrinin son illər yüksələn xətlə inkişaf etdiyi diqqətdən kənarda qalmır. Tarixi Zəfərimiz dünya siyasətində yeniliklərə yol açmaqla bərabər, türk dünyasının birliyinin zəruriliyi məsələsini daha da aktuallaşdırdı. Bu gün dünya Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun timsalında böyük ailə kimi dəyərləndirilən Türk dünyasının həmrəyliyini görür. Artıq hər günün bu qardaşlığın möhkəmlənməsində bir mühüm hadisə ilə yadda qaldığının şahidi olur və bundan böyük qürur hissi keçiririk. Aprelin 29-da dövlətimizin başçısı İlham Əliyev qardaş ölkəyə işgüzar səfəri çərçivəsində türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan ilə İstanbulda keçirilən ”TEKNOFEST” festivalında iştirak etdilər. Bu festival qardaş ölkənin digər sahələrdə olduğu kimi, kosmos, aviasiya və texnologiya sahələrində də necə sürətlə inkişaf etdiyini göstərir.

Onu da qeyd edək ki, ötən ilin may ayında ”TEKNOFEST” ilk dəfə Türkiyədən kənarda - Azərbaycanda keçirildi. ”TEKNOFEST Azərbaycan”ın açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Mehriban Əliyeva və Əminə xanım Ərdoğan, eləcə də Nobel mükafatı laureatı Əziz Səncər iştirak etmişdilər. Bu mühüm addım Azərbaycan-Türkiyə münasibətlərinin inkişaf göstəricilərindən biri olmaqla yanaşı, belə bir reallığa da işıq saldı ki, hər iki ölkənin gəncləri də potensial imkanlarından bəhrələnərək bu dostluğa öz töhfələrini verə bilərlər. Reallıq budur ki, Türkiyə müasir texnologiyalara əsaslanan layihələri ilə diqqətdədir. Məhz bu uğurlara söykənərək dövlət başçısı İlham Əliyev bu günlərdə ”TEXNOFEST” festivalındakı çıxışında bildirdi: ”Kızılelma” havada, ”Altay” və ”Togg” quruda, ”Anadolu” dənizdə - bugünkü Türkiyə budur”. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycan-Türkiyə qardaşlığının əsasında böyük öndərlər Mustafa Kamal Atatürkün ”Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, Heydər Əliyevin ”Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir” fikirləri dayanır. Dövlətimizin başçısı İlham Əliyev ”TEXNOFEST” festivalında bu tezislərə belə bir əlavəni etdi: ”Atam demişkən, ”Bir millət, iki dövlət”, əlavə də etmək istəyirəm, ”Bir yumruq!”. Təbii ki, böyük əminliklə qeyd olunan bu reallıq Azərbaycan-Türkiyə birliyinin dünəninə və bu gününə, bunların fonunda gələcəklə bağlı müəyyənləşdirilən hədəflərə əsaslanır. Ermənistanın 30 il davam edən işğalı dövründə dünya bu birliyin fonunda ədalətin və beynəlxalq hüququn müdafiəsinin, bununla bağlı dünyaya ünvanlanan çağırışların şahidi oldu. İstər rəsmi Ankara, istərsə də rəsmi Bakı ən yüksək tribunalardan ikili standartlara əsaslanan siyasətin yolverilməzliyini bəyan edərək beynəlxalq hüququn norma və prinsiplərinin tətbiqi, BMT qətnamələrinin icrası üçün vahid mexanizmin müəyyənləşdirilməsinin vacibliyini bəyan etdilər. Türkiyə-Ermənistan sərhədlərinin açılması məsələsi gündəmə gətirildikcə rəsmi Ankara bunun hansı şərtlər daxilində mümkünlüyünü bəyan edərək, işğalçı Ermənistandan sülh danışıqları əsasında Azərbaycan torpaqlarını işğaldan azad etməyi tələb etdi. Ermənilərin Türkiyəyə qarşı əsassız ”erməni soyqırımı” iddiası da gündəmdə saxlanılır və bundan zaman-zaman qardaş ölkəyə qarşı bir təzyiq vasitəsi kimi istifadə edilir. Aprelin 23-də ermənilərin qondarma ”erməni soyqırımı” ilə bağlı yürüşə hazırlığın ilk anında Azərbaycan və Türkiyə bayraqlarını yandırmaları dünyanın gözü qarşısında baş verdi. Türk və Azərbaycan xalqlarına düşmənçilikdən irəli gələn bu addım heç də təəccüblə qarşılanmadı. Çünki bir müddət öncə Ermənistanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycanın Dövlət Bayrağı Paşinyan ailəsinə yaxın olan şəxs tərəfindən yandırıldı. Bu vandalizm aktına həm Ermənistan hakimiyyətində, həm də dünyada laqeyd yanaşma bir çox məqamlara aydınlıq gətirmişdi.

YAP Xətai rayon təşkilatının sədri onu da əlavə edib ki, həmin yarışda qələbə qazanan Türkiyədən olan qadın idmançıların atdıqları addımlar Ermənistana və onun havadarlarına ciddi mesaj və dərs oldu. Bir gün öncə Azərbaycan Bayrağını yandırmaqla xalqımıza qarşı düşmənçiliyini, nifrətini nümayiş etdirən ermənilər növbəti gün başlarının üzərində Türkiyə bayrağının ucaldılmasının, eyni zamanda, bu qələbənin Azərbaycana həsr edilməsinin şahidi oldular. Aprelin 28-də ölkə Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban xanım Əliyevanın İrəvanda keçirilmiş ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycana həsr etmiş Türkiyə idmançıları ilə görüşündə dövlət başçısı bu mühüm addımın Türkiyə və Azərbaycanın, iki qardaş ölkənin bütün məsələlərdə bir yerdə olduqlarını təsdiqlədiyini bildirdi: ”Biz olmayan yerdə siz varsınız, siz olmayan yerdə biz varıq. Biz birik, biz müttəfiqik, biz qardaşıq. Bizim Bayrağımızı yandırdılar, amma bizim üçün öz Bayrağımız qədər əziz olan Türk Bayrağı orada dalğalandı”. Azərbaycan Prezidenti belə bir çağırışı da səsləndirdi ki, bayraq yandırmaq heç kimə şərəf gətirmir. Bu gün bizim bayraqlarımız, iki qardaş ölkənin bayraqları - Türkiyə, Azərbaycan bayraqları Ağrı dağda, Murov dağında, Zəngəzur dağlarında, Şuşada bir yerdə dalğalanır və əbədi dalğalanacaq, hər zaman bir yerdə.

Vüqar Rəhimzadə qeyd edib ki, bu gün Azərbaycan-Türkiyə qardaşlığı bundan sonra neçə-neçə nəsillərin belə qürur duyacaqları dövrünü yaşayır. Artıq iki ildir ki, bu dostluq, qardaşlıq, müttəfiqlik əlaqələrinə Şuşa Bəyannaməsi bələdçilik edir. Prezident İlham Əliyev Azərbaycan-Türkiyə qardaşlığının möhkəmləndirilməsinə xidmət edəcək daha bir hədəfi açıqladı: Yaxın gələcəkdə Azərbaycanda ”Bayraktar” mərkəzi yaradılacaq. Azərbaycan səmasında ”Kızılelma” olacaq.

YAP Xətai rayon təşkilatının sədri belə bir ümumiləşdirməni aparıb ki, yeni hədəflərin reallığa çevrilməsi ölkəmizin hərbi qüdrətinin daha da möhkəmləndirilməsində öz sözünü deyəcək. Türkiyə Ordusu bu gün dünyada ən öndə olan orduların sırasındadır. Türkiyənin müdafiə sənayesi bu gün bütün dünya tərəfindən qəbul edilir. Ən inkişaf etmiş, ən çağdaş, ən modern müdafiə sənayesi həm Türkiyəni, həm Azərbaycanı gücləndirir.



**Vəli Vəliyev**

# 4, 9, yoxsa 6?

El arasında bir misal var, ”həm oğru, həm doğru”. Bu, bütünlüklə Ermənistana aiddir. Bu gün Azərbaycanı Laçın yolunu kəsməkdə ittiham edir. Hərdən Üçtərəfli Bəyannamədən sitat da gətirir. Guya Azərbaycan Laçın yolunu kəsib. Ki, bu da üç ölkə liderlərinin imzalarına hörmətsizlikdir. Buna yalnız siyasi həyasızlıq demək olar. Başqa ifadələr də işlətmək olar, qorxuram ermənilərin əsli-nəsli, soyu-kökü, keçmişi, cədd-abası bu dünyadan gedən rəngarəng mesajlardan qəbirlərində yata bilməyə. Tanrıya qarşı hərdən naşükür olmaq istəyirəm. Axı bizim nə günahımız var idi ki, belə murdar ünsürləri bizə qonşu yaradıb? Deyər ki, bu qaraçı tayfası sonradan azıb buralara qədər gəliblər. Azmağa başqa yer tapmadılarmı, niyə bizim torpaqlara, niyə Türkün min illərlə sakit, hüzur içində yaşadığıat yurd yerlərinə gəlib doluşdular?

Ermənistan bütün görüşlərdə ya Azərbaycanı ”Ermənistanın suveren ərazilərini işğal etməkdə”suçlayır, ya ”120 minlik erməniləri soyqırıma məruz qoymağa hazırlaşır” yalanını uydurur, ya da bizi Laçın yolunu kəsməkdə günahlandırır. Bu məqamda ermənilərə bir xatırlatma gəlsin ki, gözlərini dörd açıb, qulaqlarını şəkləyib diqqət kəssinlər. Bu millətə tarix boyu bizə qarşı etdikləri barbarlığı, vəhşiliyi, terror, dünyada nə ki pis əməl var, onu hər dönəmdə təkrar söyləmək gərəkdir ki, ağıllarını cəm edə bilsinlər, iftiranın həddini bilsinlər, səbr kasamızın necə, nə vaxt daşdığının və onun nəticələrini boş kafalarına yerləşdirə bilsinlər. Yoxsa bu millətcik, milçək sürüsü hələ bizim başımızı çox ağrıdacaq

Yaxın tariximizə nəzər salaq, 1887-88-ci illər. Ermənistan çalxalanır, M.Qorbaçovun özünə iqtisadi məsələlər üzrə müşavir seçdiyi akademik A.Aqambekyan 1987-ci ilin sonunda Fransanın ”Humanite” qəzetində ”Dağlıq Qarabağ Muxtar Vilayəti”nin Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi barədə bəyanatla çıxış etməsi ilə 1988-ci ilin fevralında məlum ”Dağlıq Qarabağ” hadisələri başlayır. Buna qədər isə indiki Ermənistan adlanan tarixi Azərbaycan ərazilərində yaşayan 300 mindən artıq azərbaycanlılar öz doğma yurdlarından zorla qovuldular. Xaricdən Ermənistana axın edən terrorçu-daşnak birləşmələri qəsa müddət ərzində soydaşlarımızı isti ocaqlarından didərgin saldılar. Qarabağda isə vəziyyət gərginləşməkdə idi, burada yaşayan ermənilərin ərazi iddiası elan edilməyən müharibəyə səbəb oldu. Bu müharibənin ilk şəhidləri Əsgəranda Əli ilə Şəhriyar oldular. İki gəncimizin şəhidlik zirvəsinə ucalması xalqımızın torpaq uğrunda döyüşlərinin başlanğıcı oldu. Azərbaycanda milli azadlıq hərəkatını söndürməyi bacarmayan sovet hakimiyyəti Azərbaycana qarşı Ermənistan amilindən istifadə etdi və beləliklə, Birinci Qarabağ müharibəsi başladı.

Bu müharibə Bişkek müqaviləsi ilə müvəqqəti dayandırıldı, atəşkəs elan edildi, amma müharibə bitmədi. Nəticədə Ermənistan Azərbaycanın 20 faiz torpaqlarını işğal etdi. Bu fakt bütün beynəlxalq sənədlərdə də qeyd edildi. Hətta BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini qeyd-şərtsiz boşaltması ilə bağlı ard-arda 4 qətnamə qəbul etdi. Məsələ ondadır ki, işğal faktı beynəlxalq qurumun ali orqanı tərəfindən qəbul edilən qətnamədə öz əksini tapdı. Bəs Ermənistan nə etdi? BMT Təhlükəsizlik Şurasının qətnaməsini qulaqardına vurdu, silahlı birləşmələrini Azərbaycanın bir qarış torpağından belə çıxarmadı. Əksinə, hər gün təmas xəttində atəşkəsin pozulmasına səbəb oldu. Münaqişənin həllinə nail olmaq üçün yaradılan ATƏT-in Minsk qrupu, dolayısı ilə ABŞ, Fransa və Rusiya Ermənistanın işğalçı olduğunu bilə-bilə İrəvanı torpaqlarımızdan çıxarmaq üçün heç bir əməli iş görmədi. Əksinə, Azərbaycanın baş verənlərlə barışmasını istədi. Təbii ki, məqsəd bəlli idi.

Ataların bir misalı da var, ”Zor şəriətlə yarıdır”. Yəni kim güclüdürsə, onunla daha tez hesablaşırlar. Azərbaycan 27 ildən sonra Ermənistana öz gücünü açıq şəkildə göstərdi və dünya bizimlə hesablaşmalı oldu. Azərbaycan ötən iki il yarım müddət ərzində işğaldan azad etdiyi ərazilərdə suveren hüquqlarını bərpa etdi. Son hadisələr, Azərbaycan-Ermənistan sərhədində sərhəd və gömrük keçid məntəqələrinin yaradılması da ölkəmizin haqqıdır. Düzdür buna qarşı ara-sıra çıxanlar olsa da məsələnin çox da dərininə getmək istəmədilər. Niyə də getsinlər? Azərbaycanın fəaliyyəti dünya birliyi tərəfindən tanınmış sərhədləri daxilindədir.

Gələk əsas məsələyə, Ermənistan tərəfi sərhəd və gömrük keçid məntəqələri yaradan Azərbaycana iradı budur ki, guya biz Azərbaycan-Rusiya və Ermənistan liderləri arasında imzalanmış Üçtərəfli Bəyanatın şərtlərini pozuruq. Yəni sənədin 6-cı maddəsinə istinad edən ermənilər Ermənistanla Qarabağda yaşayan ermənilər arasında əlaqələrin yaradılması üçün ”Laçın dəhlizi”adlanan yolun Azərbaycan tərəfdən nəzarətə götürülməsini şərtlərin pozulması kimi qəbul edib haray-həşir salırlar. Əvvəla Azərbaycan-Ermənistan sərhədində keçid məntəqəsinin quraşdırılması yolun tamamilə bağlanması anlamına gəlməməlidir. Əgər ermənilər hər iki istiqamətə qaydalara uyğun hərəkət edəcəklərsə, burada heç bir problem də olmayacaq. Yox, əgər ermənilər əvvəllər olduğu kimi, Ermənistanda hərbi yükləri, minsları, top-tüfəngləri daşıyıb Xankəndiyə və digər ərazilərimizə dolduracaqlarsa və geri qayıdan yük maşınları ilə Qarabağdakı mədənlərimizdən yeraltı sərvətlərimizi qanunsuz olaraq Ermənistana və oradan Avropaya, Rusiyaya daşıyacaqlarsa, onda yol-dəhliz anlayışında, bundan istifadədən söhbət gedə bilməz. Ermənistan və ermənilər Azərbaycanın Üçtərəfli Bəyanatın 6 bəndinin şərtlərini pozduğunu iddia edir. Bəs həmin sənədin 4-cü maddəsi nəyi özündə ehtiva edir? 4-cü bənddə deyilir: ”Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir”. 9-cu bənddə isə: ”Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir”, yazılıb.

Gələk son sualımıza, 6-cı bəndin pozulduğu bəhanəsi ilə özünü ”xarakir” edən ermənilər, bəs 4-cü və 9-cu bəndləri nə tez unudursunuz? Yəni beyninizin ”pikser”-i yalnız 6-cı bəndi qəbul etmək imkanınamı qadirdir? Bəs qalanları???

**"Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası nəticəsində bölgələrdə çox böyük, genişmiqyaslı quruculuq işləri aparılmışdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində deyib.**

Bu işlərin davam etdirildiyini və hazırda 4-cü Dövlət Proqramının icra olunduğunu vurğulayan Azərbaycan Prezidenti bildirib: "Mənim də bölgələrə səfərlərim həm nəzarət üçün bir vasitədir, yəni, verdiyim tapşırıqlar necə yerinə yetirilir, eyni zamanda, növbəti tapşırıqlar, tövsiyələr verilir ki, bölgələrdə bizim bəyan etdiyimiz bütün hədəflər təmin edilsin, ilk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması. Bir sözlə, Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir".

Bəli, Azərbaycanın ümumi tərəqqisi regionlarımızın ahəngdar inkişafından, sosial-iqtisadi və mədəni həyatda əldə olunan nəticələrdən, bölgələrdə həyata keçirilən layihələrdən çox asılıdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev regionların inkişafını hər zaman diqqət mərkəzində saxlayır, yerlərdə görülən quruculuq işləri ilə şəxsən tanış olur, müvafiq tapşırıqlar verir. Ən mühüm məsələ isə, Prezident İlham Əliyev hər regionlara hər səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsi olmaqla, dövlət başçısının hakimiyyətlə xalqın birliyini möhkəmləndiyinin göstəricisidir.

Prezident İlham Əliyevin aprelin 18-də Səlyan və Neftçala rayonlarına və səfər çərçivəsində açılan obyektlərlə yanaşı həlli vacib olan problemlərin həyata keçirilməsi ilə bağlı tapşırıqları verməsi bir daha dövlətin xalqının yüksək inkişafı və rifahına hesablanmış amildir.



# Yüksək inkişafa və rifaha əsaslanan siyasət

## PREZİDENT İLHAM ƏLİYEV: "Bölgələrə səfərlərim nəzarət üçün bir vasitədir"



### REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR DÖVLƏT PROQRAMLARININ İCRASI MÜHÜM NƏTİCƏLƏR VERMƏKDƏDİR

Azərbaycanın iqtisadi inkişafının əsas baza sütunlarından birinə çevrilən regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illərə dair) respublikamızın sıçrayışlı inkişafını təmin etməklə yanaşı, insanların sosial həyatının yaxşılaşması, bölgələrin simasının əhəmiyyətli dərəcədə dəyişərək yeni proqressiv çalarlar almasında mühüm rol oynayıb. Daha dəqiq desək, istehsal müəssisələrinin fəaliyyətinin bərpası və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, regionların inkişafı üçün zəruri infrastrukturun yaradılması, aqrar sektorda intensiv metodlardan istifadə, fermerlərə və digər kənd təsərrüfatı işçilərinə dəstək məqsədilə müxtəlif servis mərkəzlərinin, investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması və digər kompleks tədbirlərin görülməsi nəticəsində regionların sosial-iqtisadi inkişafında dönüş yaranıb. Şübhəsiz, regionların sosial-iqtisadi inkişafı bütövlükdə respublikanın ümumiinkişaf göstəricilərinə təsir edən mühüm faktordur. Məlum olduğu kimi, dövlət başçısı İlham Əliyev 2003-cü ildə vəzifəsinin icrasına başlarkən regionların sosial-iqtisadi inkişafını Özünün fəaliyyətinin əsas istiqamətlərindən biri kimi elan etdi. Və bu hədəfə çatmaq üçün ötən dövrdə regionların sosial-iqtisadi inkişafına dair 3 çoxşaxəli Dövlət Proqramı uğurla həyata keçirilib. Eyni zamanda, hazırda 4-cü Dövlət Proqramı icra olunmaqdadır. Sözsüz ki, bu Dövlət proqramları qarşıya qoyulan məqsədlərə nail olunması ilə yanaşı, Azərbaycanda bir sıra sahələrdə sıçrayışlı inkişafa da təkan verib. Digər tərəfdən, ölkəmizdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla yerinə yetirilməsi ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin etməklə yanaşı, işsizliyin aradan qaldırılması prosesinə əhəmiyyətli zəmin yaradıb. Belə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qəbul edilən regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurla həyata keçirilməsinin nəticəsi olaraq ötən müddət ərzində respublika ərazisində yüz minlərlə yeni iş yeri yaradılıb. Yaradılan yeni iş yerlərinin mütləq əksəriyyəti isə daimidir. Beləliklə, ötən illər ərzində regionlarda yüzlərlə sənaye müəssisələrinin fəaliyyətə başlaması xalqın rifahına hesablanmış uğurlu nəticələrdir.



### AZƏRBAYCAN BÖLGƏLƏRİNİN ÜMUMİ İNKİŞAFI HƏM SOSİAL XARAKTER DAŞIYIR, EYNİ ZAMANDA, ÖLKƏMİZİ GÜCLƏNDİRİR

Prezident İlham Əliyevin Salyana səfəri zamanı Azərbaycan Televiziyasına verdiyi müsahibəsində regionların sosial-iqtisadi inkişafı dövlətin prioriteti olduğu öz əksini tapıb. Dövlət başçısı qeyd edib ki, bütün hədəflər- insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması bölgələrdə təmin edilir.

Qeyd edək ki, Prezident İlham Əliyevin bölgələrə hər bir səfəri insanların qayğı və problemlərinə həssas münasibətin nümayişinə çevrilir və ötən illər ərzində ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi bütün vədləri yerinə yetirən dövlətimizin başçısı İlham Əliyev hər bir addımda vətəndaşların mənafeyi əsas amillərdəndir. Və aprelin 18-də Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Neftçala rayonuna səfəri və səfər çərçivəsində yeni obyektlərin açılması Prezident İlham Əliyevin son zamanlarda həyata keçirdiyi islahatlar Azərbaycanın dayanaqlı inkişafının səbəbidir.

"Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm",-deyən dövlət başçımızın gördüyü misilsiz və uğurlu işləri göz önündədir.

Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk dövrdən iqtisadiyyatın şaxələndirilməsini, qeyri-neft sektorunun inkişafını bir vəzifə kimi hökumətin qarşısında qoymuşdu. Xüsusilə, regionların sosial-iqtisadi inkişafı dövlət proqramı sosial-iqtisadi sahədə ilk proqramlarımızdan biri olmuşdur. Qeyd edək ki, ilk proqramın icrası nəticəsində ölkənin regionlarının siması, sözün əsl mənasında, dəyişmişdir, insanların həyat səviyyəsi dəfələrlə artmışdır. Ölkəmizdə islahatların prinsipləri xalqın istəyi və dünya çağırışlarına adekvat aparılaraq Azərbaycanı dünyanın ən nüfuzlu ölkələri sırasına qaldırmış və hər bir azərbaycanlının maraqlarını müasir tələtümlü dünyada təmin etməyə yönəlmişdir. Və dövlət başçımızın regionlara hər səfərləri həm nəzarət üçün bir vasitədir, ən əsası isə bütün hədəflər təmin edilsin, ilk növbədə, insanların rifah halının yaxşılaşdırılsın. Buna misal bu gün "ASAN xidmət" dünyada tanınan ən mütərəqqi Azərbaycan brendi kimi tətbiq edildiyi bütün sahələrdə tam şəkildə özünü doğrultmuş kreativ layihə olarqa vətəndaş məmnunluğunun təmin edilməsində ən yüksək göstəricilərə malikdir. Və



insan amilinin böyük önəm daşıdığı Azərbaycanda bu sahənin inkişafı və tətbiq sahəsinin genişləndirilməsi ilə bağlı Prezident İlham Əliyevin təşəbbüsü tamamilə məntiqli və qanunauyğun olmaqla ölkəmizdə insan hüquqlarının qorunması və dövlət quruculuğu sahəsində daha yüksək nəticələrin əldə olunmasını və müasir, sivil vətəndaş cəmiyyətinin formalaşmasını hədəfləyir.

Prezident İlham Əliyev Səlyan rayonunda "ASAN xidmət" mərkəzinin açılış mərasimindən sonra Azərbaycan Televiziyasına müsahibəsində bildirib ki, "ASAN xidmət" sistemi bu gün dünyada artıq Azərbaycan brendi kimi tanınır. Və "ASAN xidmət" mərkəzlərində göstərilən xidmətlər əhali tərəfindən rəğbətlə qarşılanır və bəyənmə əmsalı 99,8 faizdir.

Salyan rayonunda açılışı olan "ASAN xidmət" mərkəzinin sayca 25-ci mərkəz olduğunu vurğulayan dövlətimizin başçısı bildirib: "Dünyada artıq ASAN modelini bir neçə ölkə tətbiq edir. Biz bu ölkələrə metodik dəstək veririk. Son illər ərzində, yəni, 10 il ərzində 61 milyon müraciət olmuşdur. Yəni, bu xidmətin yaradılması faktiki olaraq ictimai xidmətlər sahəsində bir inqilab idi, bir dönüş nöqtəsi idi və hazırda 300-dən çox xidmət göstərilir. Beləliklə, "ASAN xidmət" bizim, o cümlədən intellektual məhsulumuzun bir nümunəsidir və eyni zamanda, biz artıq intellektual məhsul ixrac edirik".

Bir sözlə, dövlət başçısının regionlara hər səfəri sosial rifahın daha da inkişafına doğru atılan uğurlu addım olmaqla, ölkəmizin daha da inkişaf etməsinə, sosial rifahın yüksək səviyyəyə çatdırılmasına və iqtisadiyyatımızın güclənməsinə geniş imkanlar yaradır. Dövlət başçımızın dediyi kimi: "Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir".

**RƏFİQƏ HÜSEYNOVA**

# İnsan amilinə söykənən növbəti humanist addım

## Prezident İlham Əliyevin Sərəncamına əsasən, İkinci Dünya müharibəsində Qələbənin 78-ci ildönümü ilə əlaqədar birdəfəlik yardım ödəniləcək



TƏHLİL

9 may - alman faşizmi üzərində qələbədən 78 il ötür. Bu tarixi qələbədə Azərbaycanın, onun övladlarının və neftinin əhəmiyyəti danılmazdır. Müharibə başlanandan keçən qısa müddət ərzində, Azərbaycan ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilib, 1941-1945-ci illərdə respublikanın 700 mindən çox oğlan və qızları cəbhəyə yola salınmışdır. Göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci kimi milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçərək, qəhrəman övladlarımız Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsinin düşməndən azad edilməsi uğrunda rəşadətlə döyüşmüşlər. Azərbaycanın oğul və qızları faşistlərin Buhenvald, Mauthauzen, Dahau, Zaksenhauzen, Ravensburyuk, Treblinka və b. ölüm düşərgələrində Avropa ölkələrinin antifaşistləri ilə birlikdə hitlerçilərə qarşı mübarizə aparmış və azərbaycanlı adına layiq fəaliyyət göstərmişdilər. 1942-1944-cü illərdə azərbaycanlı hərbi əsirlər Polşanın Edlin, Almaniyanın Noyhammer-Ştranse, Fransanın Rodez, İtaliyanın Udine, Triyestin Opçina, Çexoslovakiyanın Brno və Bistritsa rayonlarında gizli antifaşist təşkilatları yarada bilmişdilər. Təkcə Fransanın cənubunda gedən partizan hərəkatında 1000 nəfərdən çox, Yuqoslaviyadakı partizanların zərbə briqadasında 600 nəfərdən çox azərbaycanlı vuruşmuşdu.

### ”ƏGƏR BAKININ NEFTİ OLMASA İDİ, SOVETLƏR İTTİFAQININ QƏLƏBƏSİ MÜMKÜN DEYİLDİ”

1943-cü ilin yayında Krımda fəaliyyət göstərən partizan dəstələri içərisində Azərbaycan partizan dəstəsi də var idi. Sonrakı illərdə Belarusiya torpaqlarında və Baltikyanı Respublikalarda da azərbaycanlı partizanlar düşmənə qarşı mübarizədə geniş miqyasda iştirak etmişlər. Azərbaycanlılardan Ukrayna torpaqlarında faşistlərə qarşı mübarizədə 5000 nəfərə qədər, Belarusiya torpaqlarında isə 1000 nəfərə qədər döyüşçü partizan dəstələrində fəal iştirak etmişlər. Azərbaycanlı döyüşçülər partizan dəstələri tərkibində Avropanın bir neçə ölkəsində faşistə qarşı müqavimət hərəkatında fəal iştirak etmişlər.

Qələbənin təmin edilməsində Azərbaycanın böyük xidmətləri haqqında xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: ”Əgər Bakının nefti olmasa idi, Sovetlər İttifaqının qələbəsi mümkün deyildi”. Heydər Əliyev başqa bir çıxışında xalqımızın xidmətləri haqqında ”Tarix bu gün də bilməlidir ki, İkinci dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur”, - deyə bildirmişdir. Ulu Öndər Heydər Əliyev 2003-cü ilin 25 fevralında Vaşinqtonda ”Şərq-Qərb enerji dəhlizi reallıqdır” mövzusunda beynəlxalq konfransda çıxışında bildirmişdir ki, çoxları indi də deyir ki, əgər Azərbaycan nefti olmasaydı, İkinci dünya müharibəsində SSRİ-nin İngiltərə-Amerika koaliyasiyası ilə birlikdə alman faşizminə qalib gəlməsi mümkün olmazdı.

Hitler Qafqaza hücuma başlayanda feldmarşal Manşteynə dediyi fikri xatırlatmaq yerinə düşər: ”Biz mütləq Bakını tutmalıyıq. Əgər biz Bakı neftini ələ keçirməsək müharibəni uduzacağıq”. Bu məqsədlə Hitler Xəzər boyunca, Qroznı-Maxaçqala-Bakı istiqamətində hücuma keçmək və hərbi təyyarələrdən desant buraxmaq haqqında tank və aviasiya komandanlarına əmr vermişdi. Lakin 1942-ci ilin avqust ayının sonunda faşist ordu hissələri Şimali Qafqazda Terek çayının sahillərinə çıxsalar da, güclü müqavimətlə üzləşib irəliyə doğru hərəkət edə bilmədilər. Buna baxmayaraq, 1942-ci il sentyabr ayının 16-da SSRİ-nin Dövlət Müdafiə Komitəsi Bakının müdafiəsi üçün xüsusi qərar qəbul etdi, və bu qərara əsasən 1942-ci ilin sentyabr ayının 24-də Azərbaycanda hərbi vəziyyət elan edildi.

### ”XALQIMIZIN QIZIL FONDU”

Onların qəhrəmanlığı, fədakarlığı heç zaman unudulmur. Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. İkinci Dünya müharibəsində od-alov püskürən cəbhələrdə ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən insanlara və müharibə veteranlarına da Azərbaycanda böyük diqqət və qayğı göstərilir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, veteranlara ikinci həyatı Ulu Öndər Heydər Əliyev bəxş etmişdir. Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirmiş və onlara hərtərəfli qayğı ilə yanaşmışdır. Müstəqilliyin ilk illərində veteranlara ədalətsiz münasibət heç kimin yadından çıxmayıb, AXC-Müsavat iqtidarı dövründə, hətta 9 May Qələbə Gününü də ləğv etmək fikrində idilər. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycana hakimiyyətə qayıdışından sonra bu ədalətsiz münasibət aradan götürüldü, ədalət bərpa olundu və veteranlara layiq olduqları hörmət göstərilməyə başlandı. Ulu Öndər Heydər Əliyev müharibə veteranlarını ”xalqımızın qızıl fondu” adlandırırdı. Belə ki, xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl şücaət və əzmkarlıq göstərmişdir. Ulu Öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. 9 May faşizm üzərində qələbədən 78 il ötsə də, həmin illərin ağrısını-acısını yaşayan insanlar hələ də var.

Azərbaycan Prezidenti İlham Əliyevin ”1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında” 26 aprel 2023-cü il tarixli Sərəncamı həmin kateqoriyadan olan vətəndaşlara yüksək diqqət və qayğının daha bir təzahürüdür. Sərəncama əsasən, İkinci Dünya müharibəsində Qələbənin 78-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçısı olmuş 57 nəfərin hər birinə 1500 manat məbləğində birdəfəlik yardım ödəniləcək. İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslər, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarından ibarət 3672 nəfərin hər birinə isə 750 manat məbləğində birdəfəlik yardım veriləcək.Sərəncam, ümumilikdə İkinci Dünya müharibəsi iştirakçıları və sənəddə nəzərdə tutulan digər şəxslərdən ibarət 3729 şəxsə şamil olunacaq.Birdəfəlik maddi yardımların verilməsi üçün Sərəncamla Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 2,9 milyon manat vəsait ayrılıb.Prezident İlham Əliyevin imzaladığı Sərəncam Azərbaycanın dövlət siyasətinin insan amilinə söykənməsi və humanist mahiyyət kəsb etməsinin növbəti təzahürüdür.

*Zümrüd BAYRAMOVA*

---



Lalə Mehralı

# Çətindir qadın olmaq...

**“Bütün günü evdə oturur” - haqlarında çox vaxt belə danışırlar. Yaşadıqları həyat çoxunun fikrincə rahatdır. İş saatının nə olduğunu bilməyən, mətbəxdən qonaq otağına, qonaq otağından yataq otağına, oradan vanna otağına - bütün günü evdə kilometrlərlə məsafə qət edən ev xanımları ən ağır işdə işləyirlər əslində. 9-da işə gedib 5-də evdə olan insanların istirahət saatı var, amma onların yox. Heç düşündünüzmü, ev xanımlarına maaş verilsəydi, gördükləri işin müqabilində nə qədər pul qazanardılar?**

Onların işi çətindir, çünki iş saatları heç vaxt bitmir. 24 saat işdədirlər, istirahətləri yoxdur, tətilə çıxmırlar, dincəlməyə getmirlər. Kimini işə, kimini dərsə, kimini bağçaya göndərib özü də evdə işə başlayan xanımlar - evdar qadınlar. Özləri özlərinin müdiri, özləri özlərinin fəhləsi, iş yoldaşları yox, maaşları yox...

Həmişə fikirləşirəm ki, ev işləri nankor insan kimidir. Çox əziyyətlə ərsəyə gəlir, durmadan-dayanmadan üzərində işləyirsən, amma əziyyətin çox asanlıqla məhv olur. Bütün günü ev təmizləyən evdar qadının zəhməti axşam yeməyi zamanı yerə tökülmüş ovuntu, otaqlara səpələnmiş bir kisə oyuncaq, ya da ortalığa atılmış bir tay corabla görünməz olur. Yenə təmizləyirsən, amma nə fayda? Arxanı çevirən kimi yenə eyni şey...

Texnoloji imkanlar dadına yetir, bəs onlardan öncə? O zamanlar da günü boyu paltar yuyan, ev süpürən, döşəmə silən, qapı-pəncərə sürtən ev xanımlarına da ”bütün günü evdə oturursan” deyənlər olub təbii ki. Elə indi də o fikirdə olanlar az deyil. Axşam 5 dəqiqəyə ”həzm-rabe”dən keçirilən dolmalar 5 dəqiqəyə bükülmür, yaxalığı dim-dik duran o köynəklər öz-özünə elə olmur, şüşə kimi parıldayan döşəməni mələklər silmir, uşaqların dərsinə qonşular kömək etmir, hamısını xanımlar edir.

Yuxudan oyanar-oyanmaz - çox vaxt saat 6-7-də başlayır iş saatları. Bir əli ilə uşaqları məktəbə hazırlayır, bir əli ilə səhər yeməyi hazırlayır, o biri əli ilə dərsə hazırlaşan uşaqların tökdüklərini yığır. Bəzən fikirləşirsən ki, neçə əli var qadınların? İşləyən xanımların həftədə bir dəfə etdiyi ev təmizliyini evdar xanımlar gündəlik edir. Görməməzlik edə bilmir, ”bu işi də görüm bitsin”, ”o işi də edim birdəfəlik rahat oturum” deyə-deyə gün boyu boş dayanmır. ”İş bitdi” deməyə fürsət qalmamış ya körpə oyanır yuxudan, ya məktəbə gedənlər qayıdır. Yenə eyni prosedur - bişir, yu, sil, süpür, yığ. Südəmər körpə varsa gecələr də dinclik yoxdur, sabah günə gözləri şişkin, yuxulu vəziyyətdə başlayacaq. ”Özünə vaxt ayırsın” deyəcək çoxları. Vaxtı qalıb ki? Hamıya paylayıb, amma özünə qalmayıb.

Uşaq otağındakı oyuncaqlar qonaq otağına qonaq gəlib, dərs masasındakı boya qələmləri mətbəxə baş çəkməyə gedib, yataq otağındakı corablar dəhlizə gəzintiyə çıxıb. Mətbəxdəki dolabda qazan qalmayıb, ”burdan sizin qapıyadək” misalı ev boyu düzüb uşaqlar. İçinə oyuncaq doldurub ”yemək bişirirlər”. Gəlinciklər divanlarda elə ədəb-ərkanla oturdulub ki, özünə oturmağa yer qalmayıb. Döşəkçələrdən ev qurub uşaqlar, yorğanlardan çardaq tikib. Axşamadək səliqəsini yerbəyer etdiyi evdən əsər-əlamət yoxdur. Ev işlərini karuselə də bənzədirəm bəzən. Sanki dayanmadan fırlanan karuseldəsən, bütün günü evin içində iş görə-görə fırlanırsan, amma geriyə baxanda gözə dəyər bir şey görmürsən. Səhərdən axşama kimi çalışıb-çabalayıb iş görsəniz də axşam olanda sanki bütün günü divanda uzanıb dincəlmisiniz kimi bir fikir formalaşır. Ən çətini də nədir, bilirsinizmi? ”İşləyirsən?” sualına utanaraq ”işləmirəm” deməkləri və buna verilən reaksiya - qalxan qaşlar, bükülən dodaqlar, kinayəli baxışlar. Onlardan çox işləyən var?

Çətindir ev xanımı olmaq. İşi bitmir, dərdi bitmir. Amma yaza-yaza həm də düşünürəm, axı iş qadını olmaq da asan deyil. Onun da işdən sonra iş başlayır. Yuxarıda yazdıqlarımı o da işdən sonra edir axı. Yenə karusel kimi, yenə eyni sistem...

Çətindir qadın olmaq...

# Mina terroru: savaş bitib, müharibə cinayətləri davam edir



**Ermənistan Azərbaycana qarşı 30 illik müharibə cinayətlərinə hələ də son verməyib. Aprelin 28-də Tərtər rayonunda üç nəfər mülki şəxsin mina partlayışı nəticəsində həlak olması bunun daha bir əyani sübutudur.**

Təkcə bir fakta nəzər yetirək. Vətən müharibəsindən bu günədək 300-ə yaxın şəxs Ermənistanın mina terrorunun qurbanı olub. Bu o deməkdir ki, düşmən ərazimizdə müharibəni gizli şəkildə davam etdirir, dinc əhaliyə qarşı terror törədir. Məqsəd bəllidir: daha çox mülki şəxsin həlak olmasına nail olmaq, bölgədə gərginliyi alovlandırmaq, sülh prosesini sabotaj etmək.

Beynəlxalq konvensiyalara əsasən, əraziləri minalamış tərəf müharibə bitdikdən sonra dəqiq hazırlanmış mina xəritəsini qarşı tərəfə təqdim etməlidir. Ermənistan isə beynəlxalq humanitar hüququ kobud şəkildə pozaraq basdırdığı minaların dəqiq xəritələri barədə nəinki məlumat vermədi, əksinə, yeni ölüm toxumları səpdi. Beynəlxalq təzyiqlərdən sonra təqdim etdiyi xəritələrin dəqiqliyi isə cəmi 20-25 faiz oldu.

Bütün bunlar, heç şübhəsiz, azad olunan ərazilərdə quruculuq işlərinə və qayıdış prosesinə ciddi əngəl törətməyə hesablanıb. Çünki dəqiq xəritələrin təqdim olunmaması təmizləmə işlərini çətinləşdirir, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışını ləngidir.

Rəsmi Bakı bununla bağlı beynəlxalq təşkilatlara dəfələrlə müraciət etsə də, istənilən nəticə yoxdur. Ayrı-ayrı dövlətlər, beynəlxalq qurumlar Azərbaycana qarşı törədilən hərbi cinayətlərə göz yumaraq məsələyə biganə yanaşır, terrorçu ölkəni sərt şəkildə qınamır. Belə laqeyd münasibət isə Ermənistanın cəzasızlıq mühitində yeni cinayət əməllərinə yol açır, yüzlərlə vətəndaşımız ermənilər tərəfindən basdırılan minaların qurbanı olur.




İmkan vermədik də. 30 illik işğala son qoyan, tarixi ədaləti bərpa edən Azərbaycan Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsini qurmaqla bu dəfə də beynəlxalq normalar çərçivəsində leqal hərəkət etdi, Ermənistanın qanunsuz əməllərinin-müxtəlif yollarla Qarabağa silah-sursat, canlı qüvvə, o cümlədən mina daşınmasının qarşısını aldı.






Həmişə haqq-ədalətdən, humanizmdən dəm vuran beynəlxalq təşkilatlar itirilmiş imiclərini bərpa etmək üçün ikili standartlar qəlibindən çıxmalı, minalanmış ərazilərin dəqiq xəritələrinin Azərbaycana verilməsi üçün Ermənistana təzyiq göstərməli, hətta müharibə cinayətlərinə görə bu ölkəyə qarşı sanksiya tələbi ilə çıxış etməlidirlər. Əgər verdikləri bəyanatlarda olduğu kimi, həqiqətən regionda sülhün və təhlükəsizliyin təmin olunmasında maraqlıdırlarsa...






Elçin Bayramlı

# İdman müəllimi, yoxsa psixopat terrorçu?

**Sumqayıtdakı idman məktəbində 7 yaşlı uşağın məşqçi tərəfindən fiziki xəsarətlər yetirilərək öldürülməsi geniş ictimai rezonans doğurub. Faciədən hiddətlənən insanlar məşqçinin ağır cəzalandırılmasını tələb edir. Əvvəlcə, hadisə haqda qısa məlumat verim, sonra mən də fikirlərimi bildirəcəm.**

2016-cı il təvəllüdlü Fərid Bakarov və qardaşı iki aydır Elm və Təhsil Nazirliyinin 1 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin müəllimi, idmançı Mehman Xəlilovun keçirdiyi sambo məşqlərində birlikdə məşq edirmişlər.

M.Xəlilovun Fəridə qarşı təhlükəli fənd işlətməsi səbəbilə onun başının bədəninin altında qalması və boynunun qırılması qardaşının gözləri önündə olub. Məşq zamanı isə uşaqların anası onları zalın qapısı önündə gözləyirmiş. Müşahidə kamerasının çəkdiyi kadrlardan da görünür ki, məşqçi uşağa ardıcıl surətdə fiziki zorakılıq edir, zərbələr endirir, yerə çırpır, ayaq üstə dura bilməyən uşağı saçından tutub sürüyür.

Uşaq ciddi xəsarət aldıqdan sonra məşqçi ananı çağırıb və uşağının altına sidik qaçırdığını söyləyib. Bu zaman ana 7 yaşlı uşağın niyə sidik qaçırdığına təəccüblənib və ayaqlarının tutulduğunu görüb. Ana təcili yardım çağırmaq istəsə də, M.Xəlilov mane olub. Məşqçi uşağı qucağında piyada evə gətirib. Bu zaman uşaq qusub, sonra ana uşağı çimizdirib və görüb ki, halı yoxdur. Həmin vaxt Mehman da orada olub. Ana taksi çağırıb və uşağı Sumqayıt Şəhər Uşaq Xəstəxanasında aparıblar. Amma onun həyatını xilas etmək mümkün olmayıb.

F.Bakarovun qohumları oxu.az-a bildiriblər: "M.Xəlilov uşağı xəstəxanaya aparana kimi bütün Sumqayıtı taksi sürücüsünə fırladıb. Yəqin, fikirləşib ki, ölsə, bundan olmasın. Normal insan uşaqla elə davrana bilməz. Ana uşağı ilə davranış videosunu görmədiyi üçün "işdir də, olub",- deyir. Dünən mürdəşir bizə deyir ki, uşaq döyülüb və bədəni qançırdır. Dedik, ola bilməz. Sən demə, vəhşi kimi döyübmüş".

Həmin gün uşaq məşqə getmək istəmirmiş. Ana onu güclə aparıb. Məşq zamanı ana 2 dəfə səs-küyə salona daxil olub, hər dəfə də məşqçi onu zorakı şəkildə zaldan çıxarıb.

Faktla bağlı Sumqayıt Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3 maddəsi ilə cinayət işi başlanıb. Bu maddə 9 ildən 12 ilədək həbs cəzası nəzərdə tutur.

Kadrlardan aydın olur ki, M.Xəlilov təkcə Fərid Bakarova qarşı deyil, məşqdə iştirak edən digər azyaşlı uşaqlara da xüsusi qəddarlıqla davranıb. Bu səbəbdən də, bu müəllimin ciddi psixi problemi olduğunu düşünürəm. Həm də, o tək deyil, ortalıq psixi xəstə ilə dolub. Əgər belələri çox sərt və ciddi cəzalandırılmasa pis bir tendensiya yaranacaq. Öldürülənin doğmaları beləlrini qanundan qabaq tutub cəzasını özü verəcək. Adamlar cəzanın yüngül olduğunu görsələr, artıq qısası özləri alacaqlar. Bu səbəbdən cəzaların xeyli ağırlaşdırılmasını tələb edirəm. Üstəlik, psixi xəstələrin ortalıqdan yığışdırılıb dispanserlərə yerləşdirilməsini.

Valideynlərə isə məsləhətim odur ki, dəb xatirinə uşağınızı hara gəldi qoymayın. Seçərkən həyati dərəcəli fiziki xəsarət ehtimalı olmayan idman növlərini seçin, məsələn, üzgüçülük, gimnastika, futbol, voleybol və s. Əlbəyaxa döyüş növləri idman deyil, bu insanların bir-birinə ağır fiziki xəsarət yetirməklə məşğul olduqları vəhşi bir döyüşdür. Bunları idman adlandırmaq idman adına təhqir olardı.

Uşağınızı idman kursuna qoyanda, heç olmasa maraqlanın, müəllim kimdir, psixoloji vəziyyəti necədir, narkomandır, yoxsa yox. Kimə gəldi uşaq etibar etmək olmaz. Yeri gəlmişkən, sosial şəbəkələrdə məşqçinin narkoman olduğu, hədsiz aqressiv hərəkətlər etdiyi və bütün həyatının küçələrdə dava-dalaşlarda keçdiyi deyilir. Belə birisini Elm və Təhsil Nazirliyi nə deyib müəllim kimi işə götürüb, açıqlama verməlidir.

Digər tərəfdən 6-7 yaşlı usaqları ağır idman növlərinə, xüsusən də, idmana aid olmayan əlbəyaxa döyüş növlərinə qoymaq olmaz. Ən azı 10 yaşı keçməlidir. Qanuna görə də belə növlərə uşaqlar yalnız 9 yaşdan sonra qəbul olunur. Fəridi isə qeydiyyatdan kənar götürüblər. Deməк, nə valideynin savadı, düşüncəsi var, nə də məşqçinin. Qanunlara, məntiqə tüpürən insanlardan yaxşı nə gözləmək olardı ki? Belə məsuliyyətsiz valideynlərin və psixopat məşqçinin ucbatından körpə bir balamız məhv oldu.

Bəli, bu məqamlara fikir verməyəndə belə faciələrin baş vermə ehtimalı yüksək olur və sonra hadisəni törədənlə yanaşı özünüzü də günahlandırmalısınız. Lakin bu, həyatını itirmiş balaları geri qaytarmayacaq. Sadəcə, ömür boyu vicdan əzabı ilə yaşamalı olacaqsınız.

# "Oniomania": alış-veriş xəstəliyə çevrilərsə...

*Dünyada hər 10 insandan birində bu xəstəlik müşahidə edilir*

**Ehtiyacınız olmadığı təqdirdə yeni əşyalar almaq istəyirsinizmi? Endirimləri görəndə gözləriniz parlayırmı? Almaq istədiyiniz əşyanı aldıqdan sonra içinizdə sevinc, rahatlıq yaranırmı? Bəs ala bilmədikdə özünüzü pis hiss edirsinizmi? Vitrinlərindəki "endirim", "sale" yazılarına aldanıb olan-qalan pulunuzu mağazalarda qoyub çıxanda necə, yüngüllük hiss edirsinizmi? Əgər belədirsə, siz xəstələnmisiniz. Xəstəliyinizin adı isə belədir: "alış-veriş düşkünü".**




## Alırlar, peşman olurlar, yenə alırlar

Ekspertlər "alış-veriş xəstələri" adlandırdıqları insanları xarakterizə edərkən deyirlər ki, bu cür insanlar alış-veriş etmək istəyəndə dünyanın ən xoşbəxt insanı olurlar, aldıqları hər şey onları inanılmaz rahatladır, sevindirir. Amma alıb qurtardıqdan sonra, yəni evə qayıdan kimi aldıqları hər şeyə görə, xərclədikləri pula görə peşman olurlar, lakin sonra hiss etdiyi bu peşmanlığı özündən uzaqlaşdırmaq üçün yenə alış-veriş edirlər. Çünki onlar özlərini yalnız bu cür xoşbəxt hiss edir. Bu vəziyyət hər dəfə təkrar olunur, nəticədə borc, israfçılıq yaranır və heç vaxt geyinilməyən paltarlar dolabda köhnəlir.

Xəstəlik daha çox müasir ruhlu, yenilikci, səhər 8-dən gecə 10-a qədər işdə olan və pula düşkün ailələrdə rastlanır. Bütün gün işləyən ata, ana övladlarına lazımı məhəbbəti, qayğını verə bilmədiyi üçün özünü günahkar hiss edir və bu hissi pulla, qiymətli hədiyyələrlə ört-basdır etməyə çalışırlar. Elə bu səbəbdəndir ki, bu ailədə uşaqlar alış-veriş düşkünü olur, mənəvi boşluğu nəyisə satın almaqla doldurmaq istəyirlər. Xəstəliyin başlanma yaşı 17-30 yaş aralığındadır və ən çox qadınlarda rastlanır. Dünyada hər 10 nəfərdən birində bu problem var.

## Qadınlar çətin qərar verir

Araşdırmalar göstərir ki, qadınlar kişilərə nisbətdə daha çox mağaza gəzir, ilk gördüyünü almır, qərar verənədək bir çox vitrinə baxır, mağazalara girib-çıxır. Elə öz yaxınlarınıza nəzər salaraq ətrafınızdakı qadınların demək olar ki, hamısının alış-veriş sevdiyini, amma kişilərin bu kimi marağının olmadığını görərsiniz. Elə buna görə də kişilər gördükləri və bəyəndikləri ilk köynəyi alırsa, qadınlar gördükləri və bəyəndikləri ilk köynəyi almayıb bir neçə mağaza gəzəndən sonra geri qayıdaraq ilk bəyəndiyini alır.

Əvvəllər nəsə almaq ehtiyacını ödəmək üçün idisə son illərin kapitalist ölkələrində bu ənənə tərsinə işləyir. İndi səhərdən axşam saatlarınadək qapalı ofislərdə işləyən kişilərin dincəlmək üçün çox alternative var, idman zalına gedir, dəniz kənarında gəzir, dostlarla görüşüb çay içir. Bəs qadınlar?

Bir çox qadın mənəvi boşluq hiss edəndə, depressiyaya düşəndə ya saçlarını kəsdirir, ya qarderobunu yeniləyir. Bəzən isə qadınlar qətiyyən ehtiyacı olmayan əşyalara pul xərcləmək istəyir, yəni aldıqlarından çox onları pul xərcləmək rahatladır. Aldıqları geyimi bir dəfə belə geyinmədən başqalarına hədiyyə edir, daha sonra isə borclarla "boğuşur".

## Pul xərcləmək kədəri azaldır, amma

Psixoloq Aydın Əzimov deyir ki, bu XXI əsrin xəstəliyi adını almış bu problem bu gün inkişaf etmiş ölkələrin çoxunda var və ölkənin iqtisadiyyatının inkişafına xidmət etdiyi üçün dövlət səviyyəsində bu barədə ciddi narahatlıq hiss olunmur: "Bir çox psixoloji araşdırmanın nəticəsində məlum olur ki, nəsə almaq, pul xərcləmək insanın kədərini azaldır, sevinc hissi yaradır. Amma qətiyyən qəzəb və acığı soyutmur. Bir çox qadın kədərlənəndə onu xoşbəxt edən şeyi etmək istəyir, alış-veriş də buna daxildir. Elə qadın var kədərlənəndə şirniyyat bişirir, eləsi var ev təmizləyir, qadın var ki, özünü qəmgin hiss edəndə yalnız şokolad yeyir. Alış-veriş düşkünlüyü də bu problemlərdən biridir".

Alış-veriş əsnasında insanın beynində "endofrin" adlı hormon çoxalır, bunu alimlər "xoşbəxtlik hormonu" adlandırır. Müsahibimiz deyir ki, bu hormon bir çox səbəblərdən yüksələ bilir: "İdman edəndə, günəş enerjisi qəbul edəndə, masaj zamanı və həqiqi xoşbəxt olduğumuz anlarda beynimizdə "endofrin" hormonu yüksəlir. Qəribə burasıdır ki, nəyisə qazanmaq, almaq, nəyəsə sahib olmaq istəyi zamanı da bu hormon yüksəlir. Araşdırmalara görə qadınlar həm də daha çox menstruasiya dönəmində nəsə almaq istəyində olur. Bunun səbəbi də hormonlardakı dəyişiklikdir. Qadınlar normal zamanlarda qənaətcil olduqları halda aybaşı dönəmlərində pul xərcləmək, alış-veriş etmək hərisinə çevrilirlər".

## Kredit kartları ilə ödəmə sistemi vəziyyəti daha da ağırlaşdırır

Psixoloq deyir ki, bu xəstəlik təkrar-təkrar baş qaldıra bilir: "Bu bir növ asılılıqdır. Qadınlar mağaza vitrinlərindən, alış-veriş mərkəzlərindən asılı hala düşür. Əgər pul olmasa, alış-verişə gedə bilməsə həyatı ətrafındakılara və özünə zəhər edir. Heç vaxt geyinməyəcəyi geyimləri, istifadə etməyəcəyi əşyaları almaq artıq onda xroniki hala çevrilib. Axır illərin kredit imkanları, mağazalarda nağd yox, kartla hesablaşma bu problemi daha da böyüdüb. "Onsuz da nağd deyil" düşüncəsi ilə kartlara borcu yükləyən insanlar ay sonunda qəbzləri görəndə, bank işçisindən zəng gələndə bütün aldıqlarına görə peşmanlıq hissi keçirirlər. Amma bu hiss bir anlıq olur, çünki o hissi yox etmək üçün yenə alış-verişə baş vururlar".

Qeyd edək ki, bu xəstəliyin diaqnozu ilk dəfə 1915-ci ildə qoyulub, adına da "oniomania" - yəni "satın almaq xəstəliyi" deyilir. "Oniomania"ya mübtəla olmuş insanların demək olar ki, çoxusu xəstə olduğunu bilmir. Bir çoxu həyatını o formada davam etdirir, ömrünün sonunadək alıb yığır, amma bir çox alış-veriş düşkünü vaxtında psixoloji dəstək alaraq problemindən qurtulur. Sadəcə peşəkara müraciət etmək, problemi demək və yardım istəmək lazımdır.

*Lalə Mehralı*





# "Qərb-Ermənistan ittifaqının cəhdlərinə baxmayaraq, Qarabağın statusu müzakirə olunmayacaq"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

## Rusiyalı ekspert: Qərbin Cənubi Qafqazda son vəzifəsi Rusiyanı regiondan və Ermənistan-Azərbaycan prosesindən sıxışdırıb çıxarmaqdır






Rusiya Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Moskva-Baku" portalına müsahibəsində Qərb qüvvələrinin Cənubi Qafqazda yenidən fəallaşması, Fransa xarici işlər nazirinin Azərbaycan və Ermənistandakı bəyanatları və Parisin Ermənistan ərazisində hərbi missiyanın açılması barədə, Amerika dövlət katibinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan XİN rəhbərlərinin ABŞ-da görüşü və Moskva faktoru barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Dmitri Vladimiroviç, son günlər biz yenidən Qərb dövlətlərinin Cənubi Qafqazda əməli siyasətinin yaranmasının şahidi oluruq. Fransanın xarici işlər naziri Ketrin Kolonna Azərbaycan hakimiyyətinin Parisi Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması məsələsində balanslı davranmağa çağırdığı Bakı səfərindən sonra Ermənistanda Fransanın tamamilə ermənipərəst mövqeyini bir daha nümayiş etdirdi. Dost Ermənistanı dəstəkləyən bəyanatlarla yanaşı, Kolonna bu respublikadakı səfirliyi nəzdində hərbi missiyanın yaradıldığını bəyan edib. O, həmçinin Aİ-nin monitorinq missiyasının qərargahının yerləşdiyi Azərbaycanla həmsərhəd əraziyə də baş çəkib. Bunun fonunda Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bəyan edib ki, Yerevan öz tərəfdaşlarına Aİ-nin Ermənistan ərazisində monitorinq missiyasının sayını artırmağı təklif edib, çünki bu, kifayət deyil.***

- Ermənistanda NATO strukturlarının ardıcıl yerləşdirilməsi prosesi gedir. Şübhə yoxdur ki, İrəvan bu yola açıq şəkildə qədəm qoyub və buna davam edəcək. Heç kim Ermənistana belə bir siyasət yürütməyi qadağan edə bilməz, lakin Rusiya ilə müttəfiqlik münasibətlərinə nəzərən bunun düzgün olmadığına eyham vura bilərlər.

Biz getdikcə daha çox görürük ki, Fransa Cənubi Qafqazda kənar müşahidəçi olmaqdan çox uzaqdır, lakin özünün uzunmüddətli mövqeyi ilə prosesin çox spesifik iştirakçısıdır: o, ermənipərəst baxışını həyata keçirəcək və Ermənistanın tərəfini tutacaq. Paris əslində bunu gizlətmir, o, tərəfsiz iştirakçı və münaqişə tərəfləri ilə balansı saxlayan moderator olmayacağını gizlətmir. Necə ki, İrəvan diqqətini Fransaya yönəltdiyini, Fransanın Azərbaycana təzyiqlərinə arxalandığını gizlətmir.

Aİ-nin Ermənistanın Azərbaycanla sərhədində yerləşən ərazisində "mülki" monitorinq missiyasının açıq hərbi missiyaya çevrilməsinin əvvəldən gözlənilən ssenarisi həyata keçirilir. Fransa Azərbaycanla sərhəddə monitorinq missiyasında iştirak etməklə yanaşı, artıq Ermənistanda hərbi dayaq nöqtəsini açıq şəkildə bəyan edir. Qonşusu ilə münaqişədə Ermənistanın tərəfində olan Fransanın, əslində Ermənistanın rəqibi ilə sərhəddə yerləşən hərbi mövcudluğu bizə nəyə lazımdır?! Və o qədər aydındır ki, Aİ-nin "monitorinq" missiyasında NATO-nun hərbi qulluqçuları, zabitləri var. Baxmayaraq ki, ictimai məkanda Fransa XİN eyni rəhbəri israrla missiyanın yalnız mülki xarakter daşıdığını təkrarlamağa çalışır. Əslində "mülki monitorinq missiyasının" üzvləri, Şimali Atlantika Alyansı ölkələrinin hərbi qulluqçuları bəyanatlara imza ataraq "mülki" oldular. Ermənistan da gördüyümüz kimi NATO manevrlərində iştirak edir. NATO zabitləri, generalları mütəmadi olaraq Ermənistan Respublikasına səfər edirlər. Bütün bunlar açıq bir sirrdir. Gözlənilməz heç nə baş vermir.

***- Yeri gəlmişkən, bu gün Ermənistanın BMT-nin Rusiyanı "təcavüzkar" kimi tanıyan qətnaməsinə səs verməsi barədə məlumatlar var idi...***

- Məhz eyni siyasətin davam etdirilməsi... Rusiyaya qarşı xüsusi təxribat siyasəti.

***- Elə bir ssenari ola bilər ki, birtəhər Avropa missiyası Qarabağda yerləşə bilsin, Rusiya sülhməramlıları çıxarılsın? Çünki belə bir tapşırığın olması hissi var...***

- Bu, qeyri-realdır. Avropalılar bununla razılaşmayacaqlar. Onlar öz hərbi qulluqçularının həyatı üçün təhlükə yaratmayacaqlar. Azərbaycanla Ermənistan arasında bu yaxınlarda baş vermiş sərhəd insidentində Avropa monitorinq missiyasının rəhbərinin öz adamlarını eskalasiya zonasına göndərməkdən necə imtina etdiyini xatırlayırıq. Onlar əsl döyüş nöqtəsində görünmək istəmirlər. Ermənistandakı missiya, əslində, döyüşmək üçün deyil, İrəvanın "əlləri" ilə şabalıdları oddan çıxarmaq üçün yerləşdirilib. İrəvanda oturub oradan mətbuat konfransları verməkʔ- bəli. Erməni hərbçiləri hazırlamaq üçünbəli. Qəfil eskalasiya başa çatdıqdan sonra Fransanın xarici işlər naziri Aİ-nin monitorinq missiyasının qərargahına gələrək bu missiyanın Ermənistanla Azərbaycan arasında sülh üçün nə qədər iş gördüyü barədə bəyanatlar verməlidir -əvvəlcədən yazılmış ssenari üzrə - bəli. Bəs avropalılar Ermənistan üçün həyatlarını riskə atacaqlarmı? Heç vaxt. Heç kim qaynar nöqtəyə getməyəcək. Qərbin Cənubi Qafqazda son vəzifəsi hələ də eynidir: Rusiyanı regiondan və Ermənistan-Azərbaycan prosesindən sıxışdırıb çıxarmaq. Bunun üçün Ermənistan Amerika, NATO strukturlarına daxil edilir.




***- Maraqlıdır ki, bu gün Vaşinqtonda ABŞ dövlət katibi Blinkenin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü keçirilir. Amerika diplomatiyasının rəhbəri görüşdən əvvəl Azərbaycan prezidentinə zəng edib və Dövlət Departamentinin məlumatına görə, Azərbaycan Laçın yolu ilə nəqliyyat vasitələrinin sərbəst hərəkətini təmin etməli olduğunu, keçid məntəqəsinin quraşdırılmasının sülh prosesinə xələl gətirdiyini yenidən deməyə başlayıb. Bildiyimiz kimi, Azərbaycan tərəfindən Laçın yolunda nəzarət-buraxılış məntəqəsi quraşdırıldıqdan dərhal sonra Dövlət Departamenti və Fransa tərəfi oxşar bəyanatlarla çıxış edib. Blinkenin görüşdən əvvəl verdiyi açıqlamalar çox qəribədir?***

- ABŞ-ın, Avropa İttifaqının Cənubi Qafqazda vəzifəsi öz xəttini buradan keçirmək, ABŞ-ın başçılıq etdiyi Qərbin dünyada yeganə hegemon olduğunu göstərməkdir. Vaşinqton öz peyklərinə müəyyən bir şəkildə nə etmək lazım olduğunu söylədi, buna görə də hamı bunu etməlidir.

***- Vaşinqtondakı görüşdən nə gözləmək olar? Blinken artıq bildirib ki, müzakirələr bir həftə çəkəcək - ciddi cəhddir...***

- Aydındır ki, Rusiya Ukraynada xüsusi əməliyyatla məşğul olduğu bir vaxtda ABŞ öz vasitəçiliyi ilə Qafqazda nəticə əldə etmək istəyir. Buna görə də bir həftə kimi uzun müddət qoyublar. Amma nəticənin əldə olunacağına şübhə edirəm. Bir daha təsdiqlənəcək ki, sülh müqaviləsi imzalanmalı, Alma-Ata bəyannaməsinə uyğun olaraq Azərbaycan və Ermənistanın suverenliyinin, sərhədlərinin tanınması ilə imzalanmalıdır. Amma Qarabağın statusu bir daha müəyyən olunmayacaq.

Əliyev Vaşinqtonun bütün bu birtərəfli ermənipərəst hücumlarına baxmayaraq, yenə də Amerika torpaqlarında görüşə razıdır, çünki Bakı danışıqlar üçün bütün imkanlardan istifadə edir. Bu, öz mövqelərini bir daha nümayiş etdirmək üçün bir fürsətdir. Amma çətinlik ondadır ki, İrəvan da Qərbin dəstəyinin artması şəraitində öz mövqeyində dayanacaq.

Danışıqlar zamanı erməni tərəfi Qarabağın qondarma statusu məsələsini, Qarabağa dair müəyyən təminatların verilməsini təşviq etməkdə davam edəcək: İrəvanın Qarabağdakı siyasi və iqtisadi vəziyyətə nəqliyyat əlaqəsi vasitəsilə təsir etmək imkanı istəyir. Bunu o, müqaviləyə daxil etmək üçün səylərini davam etdirəcək.

Əliyev isə dəfələrlə vurğulayıb ki, Qarabağ Azərbaycanın ərazisidir, orada Azərbaycanın bütün qanunları qüvvədədir, milliyyətindən asılı olmayaraq bütün vətəndaşlar üçün bərabərdir. Bunun tərkib hissəsi kimi erməni icması Azərbaycan Respublikasının bütün digər vətəndaşları ilə bərabər hüquqlar əldə edəcək. Və həqiqətən başqa heç nə olmayacaq.

Azərbaycanın Laçın yolunda nəzarət-buraxılış məntəqəsi qoymasına baxanda, Azərbaycan hələ də güclü mövqelərdən çıxış etməyi, öz mövqeyinə nail olmağı bacarır. Bundan başqa, Ermənistan mahiyyətcə Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdı.

Qərb-Ermənistan ittifaqı var gücü ilə təkərə çomaq soxmağa çalışır. İrəvanın vəziyyəti öz xeyrinə oynamaq üçün aqressiv cəhdləri davam edəcək.

Yoxlama məntəqəsinin quraşdırılması vəziyyətin məntiqi nəticəsidir. Rusiya başa düşür ki, irəli getmək lazımdır, Bakı ilə İrəvan arasında sülhün imzalanması sürətləndirilməlidir. Azərbaycanın Qarabağ üzərində suverenliyinin Ermənistan tərəfindən hüquqi cəhətdən tanınması üçün Moskva bu prosesi dəstəkləyir.

***- Biz görürük ki, Moskva İrəvanın ona qarşı müntəzəm hücumlarına cavab olaraq Ermənistan hakimiyyətini tənqid etməkdə davam edir. Ermənistan Təhlükəsizlik Şurasının katibi ötən həftə Laçın yolunda vəziyyətin belə dəyişməsində Moskvanın günahkar olduğunu bildirib. Rusiya XİN isə cavab verdi ki, İrəvan da qarşılıqlı məqbul sülh yolu ilə həll yollarını axtarsa, yaxşı olardı...***

- Moskva İrəvanın hər etdiyini görür, Ermənistan Rusiyaya xəyanət edib, anti-Rusiya blokuna qoşulur.

***- Bir neçə həftə əvvəl Rusiya XİN Azərbaycan və Ermənistanın danışıqlar masasına qayıtdığını, iki ölkənin xarici işlər nazirlərinin görüşünün Rusiya ərazisində keçiriləcəyini bildirdi. Eyni zamanda, Vaşinqtonda görüş - bunların hamısı bir-birinə necə uyğun gəlir?***

- Rusiya hazırda Ukraynada xüsusi hərbi əməliyyat səbəbilə, başqa məsələləri tam həll edə bilmir. Bundan Qərb istifadə edir, Rusiyanın aparıcı vasitəçiliyinin "arasını kəsməyə" çalışır, manevr və manipulyasiya etməyə çalışır. Erməni tərəfi Moskvadan Azərbaycana təzyiq etməyəcəklərini anlayaraq Rusiya ərazisində görüşmək üçün o qədər də canfəşanlıq göstərmir. Ona görə də o, Rusiya ilə təmas ehtimalından uzaqlaşaraq, Fransa, Amerika Birləşmiş Ştatları, Avropa İttifaqının iştirakı ilə danışıqların təşkili üçün əlindən gələni edəcək. Bu davam edir və davam edəcək.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

Səs

3 may
2023-cü il

## 7 yaşlı uşağın ölümünə səbəb olan məşqçi həbs olundu



Sumqayıtda 7 yaşlı uşağa xəsarətlər yetirərək ölümünə səbəb olmaqda ittiham olunan idman müəllimi Mehman Xəlilovun barəsində həbs qətimkan tədbiri seçilib. SİA xəbər verir ki, bu barədə qərar Sumqayıt Şəhər Məhkəməsinin hakimi Elçin Məmmədovun sədrliyi ilə keçirilən iclasda elan olunub. Qərara əsasən, M.Xəlilovun barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, aprelin 29-u 2016-cı il təvəllüdlü Fərid Bakarovun Sumqayıt Şəhər Uşaq Xəstəxanasında ölməsi barədə şəhər prokurorluğuna məlumat daxil olub. İlkin araşdırma zamanı 1994-cü il təvəllüdlü Mehman Xəlilovun Sumqayıt şəhəri ərazində yerləşən məktəblərdən birində sambo idman növü üzrə keçirilən məşq zamanı Fərid Bakarova xəsarətlər yetirməsi nəticəsində sonuncunun həmin xəsarətlərdən ölməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Sumqayıt Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Mehman Xəlilov iş üzrə şübhəli şəxs qismində tutulub.

# Dərman zəhərlənmələri necə baş verir?





**“Dərmandan zəhərlənmə halları ən çox doza həddinin aşılması zamanı rast gəlinir. Bu da özbaşına, həkim nəzarəti və təyinatı olmadan hər hansı dərman vasitəsinin içilməsi ilə baş verir”. Bu sözləri SİA-ya açıqlamasında mütəxəssis pediatr Yüksel Hüseynli deyib.**

Onun sözlərinə görə, ən çox antibiotiklər, ağrı kəsici və hərarət salıcı dərmanlarla zəhərlənmə halları baş verir ki, bunun səbəbi valideynin hərarəti düşməyən uşağa daha yaxşı təsir etsin deyə dərmanı çox verməsi və ya eyni tərkibli dərmanın müxtəlif formalarının (şam,sirop,tablet) eyni zamanda verilməsi ilə baş verir: "Uşaqlar üçün olan dərmanlara qəbulu asan olsun deyə dadlandırıcı maddələr qatılır ki, bu zaman nəzarətsiz qalan uşaqlar özbaşına bu dərmanı qəbul edir. Məsələn, ən çox istifadə olunan, hərarət salmaq məqsədi ilə istifadə olunan "parasetamol" tərkibli dərmanın doza həddinin aşılması səbəbi ilə qaraciyər çatışmazlığı baş verə bilər.

Uşaqlar eyni zamanda evdə valideynlərinin, nənə babalarının dərmanlarını nəzarətsiz içə bilərlər. Bütün bunları nəzərə alaraq dərmanlar mütləq uşaqların əli çatmayan yerdə saxlanılmalıdır".

*Ayşən Vəli*

## Diqqət: Övladlığa götürmə qaydası dəyişdi

Övladlığa götürmə qaydası təkmilləşdirilir. SİA xəbər verir ki, bu, Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan Ailə Məcəlləsinə təklif edilən dəyişikliklərdə əksini tapıb. Layihəyə əsasən, uşaq onu 3 aydan az olmayan müddətdə tərbiyə edən



qəyyumları (himayəçiləri), habelə himayədar valideynləri tərəfindən övladlığa götürüldükdə, Ailə Məcəlləsinin 118.3.3-118.3.5-ci maddələrinin tələbləri həmin şəxslərə şamil olunmur.

Həmin tələblər aşağıdakılardır:

- övladlığa götürmək istəyən şəxsə (şəxslərə) uyğun uşağın, övladlığa götürülən uşağa uyğun valideynin seçilməsi;
- övladlığa götürülən uşaqla övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uşağın yerləşdiyi müəssisədə görüşünün təşkili;
- övladlığa götürülən uşağın sınaq müddətində uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin) evində yerləşdirilməsi.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

## XƏBƏRDARLIQ: Bu gün qar yağacaq



Azərbaycanda mayın 3-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında səhər saatlarında gözlənilən yağışın gün ərzində davam edəcəyi gözlənilir. Yarımadanın bəzi yerlərində intensiv olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 9-13°, gündüz 13-17° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan yüksək - 765 millimetr civə sütunu, nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 8-12°, gündüz 13-18° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-6° isti olacağı bildirilir.

## BAŞSAĞLIĞI

Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının (şəhər, qəsəbə, kənd) rəhbərliyi və kollektivi Gəncə şəhər Kəpəz bələdiyyəsinin sədri Yaşar Abdullayevə atası

**Atakişi Abdullayevin**

vəfatından kədələndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***

## Mixək yaşlı insanların qan damarları üçün faydalıdır



Tərkibindəki vitaminlər, minerallar, antioksidantlar sayəsində mixək yaşlı nəslin sağlamlığına yaxşı təsir edir. Bu barədə "MedikForum" saytı yazır. Xəbərdə deyilir ki, diyetoloq, tibb elmləri doktoru Marqarita Korolyovanın sözlərinə görə, mixək damarların möhkəmləndirilməsi üçün faydalıdır: "O, yaşlı nəsildə damar divarının və hüceyrə membranlarının bütövlüyünü qoruyub saxlayır. Bu ədviyyatın istehlakı iltihab əleyhinə təsirə malikdir".

Mixək təkcə sərbəst radikallara deyil, həm də orqanizmdə iltihaba səbəb ola biləcək digər amillərə qarşı da müqavimət göstərir. M.Korolyova bəzən mixəyin allergik simptomların yaranmasına səbəb olmasına diqqət yetirib. Mütəxəssis əlavə edib ki, bu cür ədviyyatlar heç də bütün insanların nəticəsiz istifadə edə biləcəyi universal məhsul deyil.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**